AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

31 MAY 2018-ci il CÜMƏ AXŞAMI № 120 (6153) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

*Prezident İlham ƏLİYEV:*

# Biz iqtisadi islahatların aparılmasında ancaq öz daxili imkanlarımıza güvənirik

*"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 60-cı kitabı çapdan çıxıb*




**Bəzi ölkələrin dövlət borcu ümumi daxili məhsulun 100 faizini, ondan da çoxunu təşkil edir. Daim borc götürən ölkələr o borcu qaytarmalıdır. Belə olan halda, ilk növbədə, o borcun qaytarılması üçün sosial proqramların ixtisarı, maaşların kəsilməsi hesabına bunu etməyə çalışırlar. Ona görə iqtisadi inkişafın və iqtisadi tənəzzülün sosial-humanitar aspektləri çox ciddi təhlilə məruz qalmalıdır. Bizim təcrübəmiz ondan ibarətdir ki, biz iqtisadi islahatların aparılmasında ancaq öz daxili imkanlarımıza güvənirik.**

AZƏRTAC xəbər verir ki, "İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxan 60-cı kitabında yer alan bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev 2013-cü il oktyabrın 31-də Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən III Bakı Beynəlxalq Humanitar Forumunun açılış mərasimində söyləyib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 60-cı kitabındakı materiallar 2013-cü ilin oktyabr-dekabr aylarını əhatə edir.

Nəşrin bu cildində dövlətimizin başçısının III Bakı Beynəlxalq Humanitar Forumunda, "Şahdəniz-2" üzrə yekun investisiya qərarının imzalanması mərasimində iştirak etmək üçün ölkəmizə gəlmiş dövlət və hökumət rəsmiləri, nüfuzlu ictimai-siyasi və dövlət xadimləri, habelə ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və BP şirkətinin Bakıya səfər etmiş təmsilçiləri ilə görüşləri barədə materiallar toplanıb.

Azərbaycan Respublikası Prezidentinin Türkiyəyə, Ukraynaya rəsmi, Avstriya Respublikasına, Litva Respublikasına işgüzar səfərləri, habelə Belarus Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı dövlətimizin başçısının keçirdiyi görüşlərə, mətbuata bəyanatlarına, sənədlərin imzalanma mərasiminə dair materiallar da 60-cı kitaba daxil edilib.

Bu cilddə dövlətimizin başçısının Bakının ev sahibliyi etdiyi bir sıra nüfuzlu tədbirlərin iştirakçılarına, o cümlədən İSESCO-ya üzv ölkələrin Uşaq Məsələləri üzrə Məsul Nazirlərinin IV Konfransının, UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin VIII Sessiyasının, Azərbaycan Müəllimlərinin XIV Qurultayının, "Rus İcması - 20 il Yeni Azərbaycanın Xalqlar Ailəsində" Respublika Konfransının və digər tədbirlərin iştirakçılarına müraciətləri yer alıb. Habelə Azərbaycan Prezidentinin Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzinin açılışı mərasimində iştirakına, "Bakutel-2013" XIX Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisində və digər tədbirlərdə iştirakından bəhs edən materiallar, müxtəlif çıxış və nitqlərinin mətnləri verilib.

Kitabda Prezident İlham Əliyevin Qusarda və Qubada turizm infrastruktur obyektlərinin, Bakıda nəqliyyat infrastrukturu ilə bağlı açılış mərasimlərində iştirakına dair materiallar da toplanıb.

Kitaba "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri də daxil edilib.

"Azərnəşr" tərəfindən buraxılan 60-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

**AZƏRTAC**

## Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə **qərara alıram:**

**1.** 2000-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1983-1999-cu illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2018-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

**2.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2018-ci il iyulun 1-dən 30-dək ehtiyata buraxılsınlar.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 may 2018-ci il.**

## Azərbaycan Qadınlarının V Forumunun iştirakçılarına

Hörmətli Forum iştirakçıları!

Əziz xanımlar!

Sizi Azərbaycan Qadınlarının V Forumunun açılışı münasibətilə səmimi qəlbdən təbrik edir, hamınıza cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

Forumun Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə əlaqədar keçirilməsinin dərin rəmzi mənası vardır. Azərbaycan qadınları dünyanın bir çox qabaqcıl ölkələrinin qadınlarından xeyli əvvəl, məhz müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə seçib-seçilmək hüququ qazanaraq ölkənin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında yaxından iştirak etməyə başlamışlar. Ötən müddətdə onlar ölkəmizin xüsusən təhsil, səhiyyə və mədəniyyət sistemlərinin müasir əsaslar üzərində qurulmasında əzmkarlıqla çalışmış, nailiyyətlərlə zəngin bir yol keçmişlər. Şərq qadınları arasında bir sıra sahələrdə ilk addımların Azərbaycan qadını tərəfindən atılması ona ənənəvi olaraq cəmiyyətimizdə böyük ehtiram bəslənməsinin, onun öz bilik və bacarığını gerçəkləşdirə bilməsinə lazımi şərait yaradılmasının nəticəsidir.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasından sonra ölkəmizin suverenliyi, ərazi bütövlüyü uğrunda şücaət və qəhrəmanlıqlar göstərmiş qadınlarımız həmin illərin mürəkkəb hadisələri zamanı yüksək vətənpərvərlik əzmi və istiqlal ideallarına sadiqlik nümayiş etdirdilər. Onlar çoxəsrlik milli-mənəvi dəyərlərimizi, müqəddəs ailə ənənələrimizi bu gün də layiqincə yaşadır, ölkəmizin sosial-iqtisadi və elmi-mədəni potensialının artırılmasında, multikultural və tolerantlıq mühitinin qorunmasında qüvvələrini əsirgəmirlər. Azərbaycan dövlətinin qadınlarla bağlı apardığı ardıcıl siyasət ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla qadınların bərabər hüquq və imkanlarının təmin edilməsinə yönəlmişdir. Forumunuzda qəbul olunacaq qərarların bu siyasətin təkmilləşdirilməsinə töhfə verəcəyinə əminliyimi ifadə edirəm.

İnanıram ki, Forum gender bərabərliyi siyasətinin həyata keçirilməsi istiqamətində ölkədə son illər ərzində görülmüş işləri qiymətləndirəcək, qarşıdakı dövr üçün prioritetləri müəyyənləşdirərək mühüm vəzifələr irəli sürəcək və qadınları Azərbaycanın inkişafı naminə öz fəallıqlarını daha da artırmağa sövq edəcəkdir.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 29 may 2018-ci il.**

# SƏMİMİ TƏBRİKLƏR

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Sizi və Azərbaycan xalqını Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin 25 illiyi və Cənub Qaz Dəhlizinə ilk qazın verilməsi münasibətilə təbrik edirəm. Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında 30 illik əməkdaşlığın bu mühüm nailiyyətini Sizinlə birlikdə qeyd edirəm.

İlk müstəqil dövlətinin 100 illiyini qeyd edən Azərbaycan indi daha firavan və qlobal iqtisadiyyata bağlı bir ölkədir. Azərbaycanın böyük neft yataqları dünya enerji bazarına sabitlik gətirir. Sizin qaz hasilatınız isə Türkiyə və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə töhfə verəcəkdir.

Enerji layihələrinizin uğurunu möhkəmləndirəcək iqtisadi və hüquqi islahatları davam etdirməyinizi dəstəkləyirəm. Bizim böyük dövlətlərimizin və Qafqaz regionunun daha firavan, dinc və təhlükəsiz olması naminə Sizinlə birgə işləmək əzmindəyəm.

*Səmimiyyətlə,*

**Donald Tramp**
**Amerika Birləşmiş Ştatlarının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, əziz qardaşım.

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Pakistan ilə Azərbaycan arasında qarşılıqlı hörmətə və əməkdaşlığa əsaslanan sıx qardaşlıq əlaqələri mövcuddur. Əminəm ki, ölkələrimizin ikitərəfli münasibətləri xalqlarımızın ortaq maraqları naminə gələcək illərdə daha da güclənəcək.

Zati-aliləri, Sizin müdrik rəhbərliyinizlə Azərbaycan bu gün tərəqqi və inkişaf yolunda inamla irəliləyir. Biz Pakistanda azərbaycanlı qardaşlarımızın bu bayram gününün sevincini bölüşürük.

Bu xoş fürsətdən istifadə edərək, Zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzulayıram.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**Məmnun Hüseyn**
**Pakistan İslam Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü və Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə ən səmimi təbriklərimi, Azərbaycana və onun xalqına firavanlıq arzularımı qəbul edin.

2017-ci ilin oktyabr ayında ölkənizə səfərim zamanı qurulmuş dostluq əlaqələrini çox yüksək qiymətləndirirəm.

Mən əminəm ki, Bolqarıstan Respublikası ilə Azərbaycan Respublikası arasındakı sıx əlaqələr gələcəkdə də xalqlarımızın mənafeyi naminə dostluq və xoş niyyət ruhunda inkişaf edəcəkdir.

Sizə Azərbaycan Respublikasının tərəqqi və inkişafı yolunda ali dövləti fəaliyyətinizdə möhkəm cansağlığı və uğurlar arzu edirəm.

Hörmətli cənab Prezident, ən dərin ehtiramımı qəbul edin.

**Rumen Radev**
**Bolqarıstan Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə və Sizin simanızda qardaş Azərbaycan xalqına Əfqanıstan xalqı adından ən səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra böyük və əhəmiyyətli inkişafa nail olmuşdur. Xalqlarımızın yaxın dost kimi bir-birinin yanında olmalarından xoşbəxtəm.

Ölkələrimiz arasındakı əlaqələrin daha da genişlənməsini arzulayıram. İnanıram ki, Azərbaycan Respublikası Sizin müdrik rəhbərliyinizlə daha da inkişaf edəcəkdir.

Zati-aliləri, Sizə cansağlığı, müvəffəqiyyət, dost Azərbaycan xalqına isə rifah və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**Məhəmməd Əşrəf Qani**
**Əfqanıstan İslam Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsinin 100 illiyi münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır, ölkənizə və xalqınıza rifah və sülh diləyirəm.

Mən Latviya ilə Azərbaycan arasında konstruktiv əməkdaşlığı görməkdən çox məmnunam. Fürsətdən istifadə edərək, bizim siyasi, iqtisadi və mədəni əlaqələrin vətəndaşlarımızın qarşılıqlı faydası naminə daha da inkişaf edəcəyinə əminliyimi ifadə etmək istərdim.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**Raymonds Veyonis**
**Latviya Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə və xalqınıza ən xoş arzularımı və təbriklərimi çatdırıram.

Arzu edirəm ki, qarşıdakı illər Sizin və ölkəniz üçün firavan və xoşbəxt illər olsun.

*Səmimiyyətlə,*

**xanım Kersti Kalyulayd**
**Estoniya Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümü münasibətilə Sizə ən səmimi təbriklərimizi çatdırır, Sizə firavanlıq, dost Azərbaycan xalqına rifah və tərəqqi arzulayırıq.

Zati-aliləri, xahiş edirik, Sizə olan ən yüksək ehtiramımızı qəbul edəsiniz.

*Hörmətlə,*

**Stefano Palmieri,**
**Matteo Çiaççi**
**San-Marino Respublikasının Kapitan Regentləri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

İcazə verin, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırım. Arzu edirəm ki, bu bayram Sizə və Azərbaycan xalqına uzunmüddətli rifah və tərəqqi gətirsin.

Mən İndoneziya və Azərbaycanın illər ərzində qarşılıqlı etimad və hörmətə əsaslanan səmimi münasibətləri bölüşdüyünü qeyd etməkdən məmnunam. Ümid edirəm ki, xalqlarımızın tərəqqisi və firavanlığı naminə gələcəkdə də birgə çalışacaq, ikitərəfli və çoxtərəfli əməkdaşlığımızı möhkəmləndirəcəyik.

Zati-aliləri, xahiş edirəm, ən yüksək ehtiramımı qəbul edəsiniz.

**Coko Vidodo**
**İndoneziya Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Azərbaycanın müstəqilliyinin 100 illiyi münasibətilə ATƏT-in Parlament Assambleyası adından və şəxsən öz adımdan səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm. Azərbaycana və onun xalqına uğur və rifah arzularımı çatdırıram.

Bu fürsətdən istifadə edərək, Azərbaycan Respublikası və ATƏT arasındakı səmərəli əməkdaşlığın davam etdirilməsini arzulayıram. Əmin olun ki, bizim təşkilat əlaqələrimizi daha da möhkəmləndirmək və islahatların genişləndirilməsi, bölgədə sülh və rifaha mane olan çağırışların dəf edilməsi istiqamətində Sizin ölkənizlə sıx işləmək əzmindədir.

Bakıya mart ayındakı səfərim zamanı mənə göstərdiyiniz səmimi qonaqpərvərliyə görə Sizə bir daha minnətdarlığımı bildirirəm.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**Georgi Tsereteli**
**ATƏT Parlament Assambleyasının sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Qardaşım İlham Əliyev, hörmətli cənab Prezident.

Respublikanızın yaranmasının yüz illiyi münasibətilə Fələstin Dövləti və xalqı adından, şəxsən öz adımdan Sizə ən səmimi təbriklərimi çatdırır, xalqımızın hüquqlarına dəstək olan həmrəylik mövqeyinizə görə Sizə dərin ehtiramımı bildirir, ölkələrimizi və xalqlarımızı birləşdirən güclü qardaşlıq əlaqələrimizlə fəxr edirəm. Ölkələrimiz və xalqlarımızın qarşılıqlı maraq və mənafeləri üçün bu əlaqələri inkişaf etdirmək, bütün sahələrdə yeni üfüqlər açmaq və qarşılıqlı əməkdaşlığı gücləndirmək bizim üçün hər zaman diqqət mərkəzində olacaqdır.

Lütfən ən səmimi təbriklərimi qəbul edin. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ölkənizə və xalqınıza yüksək tərəqqi və rifah arzu edirəm.

*Hörmətlə,*

**Mahmud Abbas**
**Fələstin Dövlətinin Prezidenti,**
**Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm İlham Heydər oğlu.

Dövlət bayramınız - Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Bu gün Sizin qurucu fəaliyyətiniz və Azərbaycan sakinlərinin əməksevərliyi respublikada sülhün və sabitliyin qorunub saxlanmasına, iqtisadiyyatın inkişafına və insanların həyatının yaxşılaşmasına çox kömək edir.

Bu əlamətdar gündə Sizə və bütün Azərbaycan xalqına möhkəm cansağlığı, firavanlıq, sülh və əmin-amanlıq, gözəl diyarınıza isə bundan sonra da iqtisadi tərəqqi, mənəvi və mədəni inkişafın xeyirxah ənənələrini qoruyub saxlamağı və zənginləşdirməyi arzu edirəm.

Azərbaycan Respublikasının rifahı naminə bütün işlərinizdə və təşəbbüslərinizdə Sizə uğurlar diləyirəm.

*Hörmətlə,*

**Yunusbek Yevkurov**
**Rusiya Federasiyasının İnquş Respublikasının rəhbəri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, hörmətli cənab Prezident.

Azərbaycan Respublikasının milli bayramı - Respublika Günü münasibətilə Türk Şurasının Katibliyi adından və şəxsən öz adımdan Sizi və Azərbaycan xalqını səmimi qəlbdən təbrik edir, ən xoş arzu və diləklərimi çatdırıram.

Yüz illiyini qeyd etdiyimiz respublikamız Sizin uğurlu siyasətiniz və liderliyiniz sayəsində regionun ən inkişaf etmiş ölkəsinə çevrilmişdir və dünya arenasında yerini və nüfuzunu gündən-günə daha da möhkəmlətməkdədir.

Eyni zamanda, Türk Şurasına Sizin daimi dəstəyinizi məmnuniyyətlə qeyd edir və vurğulamaq istəyirəm ki, verdiyiniz mühüm töhfələr nəticəsində türk dünyası birliyi, bərabərliyi daha da möhkəmlənmiş və çoxtərəfli əlaqələrimiz yeni mərhələyə qədəm qoymuşdur.

Zati-aliləri, bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə yeni uğurlar, Azərbaycan xalqına isə rifah və firavanlıq arzu edirəm.

*Dərin hörmətlə,*

**Ramil Həsən**
**Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi**

# Azərbaycan Qadınlarının V Forumunun iştirakçılarına

Hörmətli xanımlar.

Əziz dostlar.

Azərbaycanda qadınlara seçki hüququnun verilməsinin 100 illiyinə həsr edilmiş V Qadınlar Forumunun bütün iştirakçılarını və qonaqlarını ürəkdən salamlayıram. Forumumuz Azərbaycan üçün olduqca əlamətdar günlərdə keçirilir. Ölkəmiz böyük tarixi hadisənin bir əsrlik yubileyini qeyd edir. Yüz il öncə, 1918-ci il mayın 28-də ölkəmizin qabaqcıl siyasi və ictimai xadimləri Azərbaycanın İstiqlal Bəyannaməsini qəbul edərək Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını elan etdilər. Gənc respublikada dövlətçiliyin bütün atributları - gerb, bayraq, himn, milli ordu və pul vahidi təsis edildi. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruluşunda xalqımıza xas olan azadlıq sevgisi, ləyaqət, tolerantlıq, qadına hörmət kimi dəyərlər öz əksini tapdı. Müsəlman Şərqində ilk dəfə çoxmillətli və çoxpartiyalı parlamenti olan demokratik respublika yaradıldı. Məhz o vaxt, 100 il əvvəl Azərbaycan Xalq Cümhuriyyətində öz dövrünü qabaqlayan olduqca mütərəqqi bir qərar qəbul edildi. Müsəlman Şərqində ilk dəfə olaraq, ABŞ və bir çox Avropa ölkələrindən xeyli öncə müstəqil Azərbaycanda qadınlar kişilərlə bərabər seçmək və seçilmək hüquqlarını əldə etdilər.

Hörmətli xanımlar, əziz dostlar.

Bu əlamətdar tarixə - 1918-ci il mayın 28-dək xalqımız uzun illər yol getmişdir. Artıq XİX əsrin ikinci yarısında Azərbaycanın qabaqcıl ictimai xadimlərinin sıralarında milli oyanış prosesi başlayır, mütərəqqi islahatların aparılması, cəmiyyətin yeni, müasir düşüncə əsasında yenidən qurulması ideyası geniş vüsət alırdı. Azərbaycanın mütərəqqi ictimai xadimləri qadınların maarifləndirilməsini, onların sosial, siyasi, mülki hüquqları uğrunda mübarizəni və təhsil imkanlarının genişləndirilməsini ən mühüm vəzifələrdən biri sayırdılar. Neft sənayeçisi və mesenat Hacı Zeynalabdin Tağıyevin səyləri ilə 1901-ci ildə Azərbaycanda bütün müsəlman Şərqində ilk dünyəvi qadın məktəbi açıldı, XX əsrin ikinci onilliyində qadınların vəziyyətinə həsr edilmiş ilk qəzet və jurnallar nəşr edilməyə başladı. Bütün bunlar həm Azərbaycan Xalq Cümhuriyyətinin bəyan edilməsi üçün, həm də gənc respublikanın rəhbərliyinin Azərbaycan qadınlarına kişilərlə bərabər seçki hüquqlarının verilməsi haqqında qəbul etdiyi tarixi qərar üçün mühüm zəmin yaratdı.

Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyəti uzun ömür sürmədi. Yaranmasından 23 ay sonra xarici hərbi təcavüzün qurbanı oldu. Azərbaycan uzun 70 illik bir dövr üçün SSRİ-nin tərkibinə qatıldı.

Buna baxmayaraq, qadınların vəziyyətində mütərəqqi dəyişikliklər davam edirdi. Savadsızlıq ləğv edildi. Təhsil, səhiyyə, elmdə güclü inkişaf baş verdi. Azərbaycan qadınları təhsil və özlərinin yaradıcı potensialının reallaşdırılması üçün yeni imkanlar qazandılar. Onlar özləri üçün yeni peşələr və fəaliyyət sahələrini öyrənirdilər. Ölkəmizdə mülki və hərbi aviasiya pilotu, həkim, mühəndis, hüquqşünas, alim olan qadınlar ortaya çıxdı. Ana və uşağın sosial müdafiəsi üzrə tədbirlər gücləndirildi.

Hörmətli xanımlar, əziz dostlar.

SSRİ-nin mövcud olduğu illərdə əldə edilmiş bu nəticələr bu gün yeni nəfəs aldı. Sovet İttifaqının dağılmasından sonra 1991-ci ildə ölkəmiz öz dövlətçiliyini və müstəqilliyini yenidən bərpa etdi. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri - onun himni, gerbi, bayrağı bərpa edildi.

Müasir Azərbaycan özünü təsdiq etmiş və dinamik inkişaf edən dövlətdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz özünün sosial-iqtisadi inkişafında böyük nailiyyətlər əldə etmişdir. Son 10 ildə Azərbaycanın iqtisadiyyatı üç dəfə artmış, bir milyon yarım yeni iş yeri açılmış, minlərlə məktəb, xəstəxana, idman kompleksləri tikilmişdir.

Qadınlar və kişilər arasında hüquqi bərabərliyin yüz il əvvəl əldə edildiyi ölkəmizdə bu gün Azərbaycan rəhbərliyi üçün prioritet vəzifə ictimai həyatın bütün sahələrində qadınların fəal iştirakının təmin edilməsidir. Bu vəzifə ölkə rəhbərliyi üçün də prioritet təşkil edir. Hələ 2000-ci ilin mart ayında ümummilli lider Heydər Əliyev qadınlara münasibətdə yeni dövlət siyasəti haqqında Sərəncam imzaladı. Onun məqsədi qadınların hakimiyyət strukturlarında, biznes və iqtisadiyyatda proporsional təmsil edilməsinə nail olmaq idi. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə qadınların sosial müdafiəsinin təkmilləşdirilməsi, onların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üzrə böyük iş həyata keçirilir. Qadınlar arasında yoxsulluğun səviyyəsinin 49 faizdən 5,4 faizədək azalması, maaşların və pensiyaların artırılması, vətəndaşların sosial müdafiəsinin yüksəldilməsi - bütün bunlar bilavasitə bizim qadınlara da şamil edilir. Regionlar da daxil olmaqla Azərbaycanda qadınların məşğulluğu məsələsi də uğurla həll edilir. Onların siyasi, iqtisadi, ictimai fəallığı artır.

Hörmətli xanımlar, əziz dostlar.

Yüz il əvvəl, Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin ilk səhifələrinin yazıldığı o günlərdə qadınlar arasında savadsızlığın ləğv edilməsi, onların təhsil və səhiyyəyə çıxışının genişləndirilməsi ən ümdə vəzifələr idi. Bu gün Azərbaycanda həkim və müəllimlərin əksəriyyətini qadınlar təşkil edir. Qadın alimlərin, dövlət qulluqçularının, hüquq-mühafizə orqanlarının əməkdaşlarının, ictimai xadimlərin sayı artır. Azərbaycan qadınları arasında parlamentin deputatları, Ali Məhkəmənin üzvləri, icra hakimiyyəti strukturlarının əməkdaşları vardır. Azərbaycanda qadınlar üçün qapalı və qadağan edilmiş heç bir fəaliyyət sahəsi mövcud deyil.

Hörmətli xanımlar, əziz dostlar.

Ötən illər ərzində Azərbaycanda qadınların hüquqlarının uğurla təmin edilməsi, onların ictimai və siyasi həyatda fəal iştirakı üzrə həqiqətən nadir təcrübə toplanmışdır. Ayrı-seçkiliyin hələ də mövcud olduğu, əksər qadınlar və qızların təhsilə çıxışının bu gün də olmadığı, onların elementar hüquqlarının müdafiə edilmədiyi dünyada bu təcrübə hazırda da tələb edilən və aktualdır. Əminəm ki, bizim ümumi səylərimiz dünyanın bir çox bölgələrində qadınların üzləşdiyi problemlərin həllinə kömək edəcəkdir.

Əziz qadınlar, sizin hamınıza uğurlar, sülh, əmin-amanlıq və xoşbəxtlik arzu edirəm. Bir daha dövlət bayramımız - Respublika Günü münasibətilə sizi təbrik edirəm.

**Mehriban ƏLİYEVA,**
**Azərbaycan Respublikasının**
**Birinci vitse-prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ilə Azərbaycan dövlətçiliyinin əsası qoyulmuşdur. Ötən dövr ərzində Azərbaycan mühüm uğurlara imza atmışdır və iqtisadiyyatda, elmdə, mədəniyyətdə əldə etdiyi nailiyyətlərlə fəxr edə bilər. Sizin müdrik və uzaqgörən siyasətiniz sayəsində Azərbaycan Respublikası dövlət quruculuğu, sosial-iqtisadi inkişaf və ölkənin beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi sahəsində böyük müvəffəqiyyətlər qazanmışdır.

Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Azərbaycan Respublikasına isə daimi tərəqqi, sülh və rifah arzulayıram.

*Dərin hörmətlə,*

**Əlişir Usmanov**
**Beynəlxalq Qılıncoynatma Federasiyasının prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Xalqınızın milli bayramı və Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə Misir parlamentinin dostluq qrupunun üzvləri adından və şəxsən öz adımdan Sizə səmimi qəlbdən təbriklərimi çatdırmaqdan məmnunluq duyuruq. Qardaş Azərbaycan xalqının istək və arzularını həyata keçirmək yolunda Sizə cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər arzu edirik.

Cənab Prezident, Sizin dost Azərbaycan Respublikasına rəhbərlik etdiyiniz dövrdə uğurlu islahatların, həmçinin ölkənizdə və beynəlxalq müstəvidə səylərinizin Azərbaycanın beynəlxalq mövqeyini, birlik və müstəqilliyini gücləndirməsinin şahidiyik. Sizin Azərbaycanın milli, mədəni və dini plüralizm dəyərlərinə göstərdiyiniz ehtiram nəticəsində Azərbaycan regionda və dünyada dinlər və sivilizasiyalararası dialoqun əsas mərkəzlərindən birinə çevrilmişdir.

Qardaş Azərbaycan xalqının mənafeyi naminə ölkənizin daha da inkişafı və tərəqqisi üçün Allahdan Sizə uğurlar diləyir, qardaş ölkənizə davamlı əmin-amanlıq və sülh arzumuzu çatdırırıq.

Misir və Azərbaycan parlamentləri arasında ikitərəfli əlaqələrin bütün sahələrdə daha da genişlənməsi üçün Allahın bizə yardımçı olmasını diləyirik.

Nəcib şəxsinizə olan iftixar və hörmətimizi ifadə edərək, hər iki dövlətin müdrik rəhbərlərinin dövründə qardaş ölkələrimizə inkişaf və rifah arzulayırıq.

**Professor Dr.Üsəmə əl-Abd**
**Misir Ərəb Respublikası Nümayəndələr Palatasının Din və Vəqflər İşləri Komitəsinin sədri, Misir-Azərbaycan Parlamentlərarası dostluq qrupunun rəhbəri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Sizi və xalqınızı Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə Moldova Demokratik Partiyası adından və şəxsən öz adımdan təbrik edirəm.

Bu əlamətdar yubiley ölkə vətəndaşlarının öz tarixinə dərin ehtiram bəsləməsi və ona nə qədər bağlı olduğunu nümayiş etdirməsi, eləcə də ölkənizi rifah və inkişaf yolu ilə irəli aparmaq barədə düşünməsi üçün daha bir imkandır.

Bu bayram günündə bir daha əminliklə deyə bilərəm ki, Azərbaycan və Moldova arasında əməkdaşlıq münasibətləri gələcək illərdə də davamlı və müsbət məcrada inkişaf edəcək.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Səmimiyyətlə,*

**Vlad Plahotnyuk**
**Moldova Demokratik Partiyasının sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Qaqauz Yeri Muxtar Ərazi Qurumunun İcra Komitəsi adından Sizə dərin hörmət və ehtiramımı çatdırıram.

Çox hörmətli cənab Prezident, Qaqauz Yeri Muxtar Ərazisinin rəhbərliyi və əhalisi adından Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram. Bu şanlı və önəmli tarix Azərbaycan xalqının yaddaşında ən parlaq və mühüm günlərdən biri kimi daim qalacaqdır.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması çoxmillətli Azərbaycan xalqının vahidliyinin, onun azadlıq və ədalətə inamının rəmzi olmuşdur.

Bu gün Azərbaycan Respublikası özünəməxsus nadir tarixi və qeyri-adi mədəni irsi olan müstəqil ölkədir. O, nəinki özünün təkrarolunmaz və əvəzsiz gözəlliyi və torpağı ilə, eləcə də müsəlman Şərqində ilk demokratik dövlət olması ilə də seçilir.

Səmimi qəlbdən Sizə və Azərbaycan Respublikasının bütün sakinlərinə möhkəm cansağlığı, sabitlik və əmin-amanlıq, gələcəyə inam arzu edirəm.

Qoy Azərbaycanın gözəl torpağında hər zaman sülh və rifah, birlik və qarşılıqlı anlaşma hökm sürsün! Bu bayram Azərbaycanın hər bir sakininin qəlbini vəhdət, dostluq, zəngin və demokratik ailəyə mənsubluq qüruru ilə doldursun!

Cənab Prezident, fürsətdən istifadə edərək, bir daha Sizə öz dərin izzət və ehtiramımı ifadə edirəm.

*Ən dərin hörmət və xoş arzularla,*

**İrina Vlax**
**Moldova Respublikasının Qaqauz Yeri Muxtar Ərazi Qurumunun Başçısı**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Los-Ancelesdəki yəhudi icmasının liderləri olaraq, müsəlman dünyasında ilk dünyəvi respublika (1918-1920) və qadınlara səsvermə hüququ vermiş (1919) ilk müsəlman ölkəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin 100-cü ildönümü münasibətilə Sizi səmimi qəlbdən təbrik edirik.

Çox şadıq ki, Azərbaycan xalqı bu tarixi ildönümü özünün yenidən müstəqil olan və çiçəklənən dövləti - Azərbaycan Respublikası ilə qeyd edir.

Sovet İttifaqının süqutundan ötən 27 il ərzində Azərbaycan öz müstəqilliyini möhkəmləndirib, bölgədə önəmli iqtisadi gücə və beynəlxalq səviyyədə nüfuzlu bir dövlətə çevrilib.

Enerji təhlükəsizliyindən tutmuş beynəlxalq terrorizmlə mübarizə və iqtisadiyyatın şaxələndirilməsinədək bir çox mühüm sahələrdə əməkdaşlığı davam etdirən Azərbaycan ilə ABŞ arasında yaranmış strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndiririk.

Eyni zamanda, 1990-cı illərin əvvəllərində Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən olan və Bakıda səfirliyini təsis edən İsrail ilə Azərbaycan arasında yaxın dostluq münasibətlərinə də böyük dəyər veririk. Ötən dövr ərzində Azərbaycan-İsrail tərəfdaşlığı inkişaf edərək iki ölkə üçün yüksək önəm daşıyan bir çox sahələri əhatə edib.

Bu nümunəvi ikitərəfli münasibətlər, eləcə də hər iki ölkənin xalqları arasındakı əlaqələr gündən-günə güclənərək sarsılmaz və davamlı körpülərin yaranmasına gətirib çıxarıb.

İki min ildən çoxdur Azərbaycanda yaşayan qədim yəhudi icması Azərbaycan ilə İsrail arasında bu körpülərin saxlanılmasında mühüm rol oynamaqdadır ki, bu da nadir bir fenomendir. Qeyri-sabit regionda yerləşməsinə baxmayaraq, Azərbaycanda antisemitizmin hər hansı bir formasının mövcud olmaması, həmçinin müsəlman, yəhudi və xristianların bütün hüquq və azadlıqlara malik olaraq, sabit və təhlükəsiz şəraitdə dinc birgə yaşamaları Azərbaycandakı dinlərarası harmoniya, tolerantlıq və qarşılıqlı hörmət mühitinin mövcudluğunun bariz göstəricisidir. Sizin uzaqgörən liderliyiniz və bir-biri ilə ahəng təşkil edən bu dəyərlərin bir müstəsna hal deyil, gündəlik həyat tərzi olmasını təmin etmək istiqamətində göstərdiyiniz nümunə olduqca təqdirəlayiqdir.

Los-Ancelesdəki yəhudi icması Azərbaycanın buradakı Baş konsulluğu ilə bir çox siyasi və mədəni məsələlər, o cümlədən burada yerli icmaların ölkənizdə yüksək hörmət göstərilən yəhudi icması və Azərbaycanın İsrail Dövləti ilə möhkəm tərəfdaşlığı barədə məlumatlandırılması sahələrində açıq dialoq və sıx münasibətlər saxlanmaqdadır.

Bu tarixi ildönümü münasibətilə Sizi bir daha təbrik edir, Sizə və ölkənizə böyük uğurlar və davamlı tərəqqi arzulayırıq.

*Dərin hörmətlə,*

**Maykl Tuşin**
**Böyük Los-Anceles Yəhudi Federasiyasının İdarə Heyəti və İcraiyyə Komitəsinin üzvü, Universitet Sinaqoqunun sabiq prezidenti**
**Ravvin Abraham Kuper**
**Simon Vizental Mərkəzinin sədr müavini**
**Skot Edelman**
**Amerika Yəhudi Komitəsinin Los-Anceles nümayəndəliyinin prezidenti**
**Cey Senderson**
**Böyük Los-Anceles Yəhudi Federasiyasının prezidenti və baş icraçı direktoru**
**Ravvin Morli Fainstayn**
**Universitet Sinaqoqunun baş ravvini, Cənubi Kaliforniya Ravvinlər Şurasının sabiq prezidenti**
**Ravvin Maykl Qotlib**
**Kehillat Maarav Qərb Sinaqoqunun baş ravvini**
**Ravvin Coel Saymonds**
**Ədalət naminə Yəhudi Mərkəzinin icraçı direktoru**
**Riçard Paçulski**
**ilshire Boulevard Sinaqoqunun sabiq prezidenti**
**Ancela Maddahi**
**Los-Anceles Sinay Sinaqoqunun prezidenti**
**Suzan Azizzade**
**Amerikadakı İran Yəhudiləri Federasiyasının prezidenti**
**Ravvin Devid Şofet**
**Nessah Sinaqoqunun qurucusu və baş ravvini**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Milli bayramınız - Respublika Günü və Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsinin 100 illiyi münasibətilə Zati-alinizə və Azərbaycan xalqına "TEKFEN İnşaat" şirkəti adından və şəxsən öz adımdan ən səmimi arzularımı və təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Sizin böyük əməyiniz sayəsində həyata keçirilən və qardaş Azərbaycan xalqının milli maraqlarını əks etdirən siyasət nəticəsində Azərbaycan dünya miqyasında layiqli yer tutaraq, beynəlxalq birliyin fəal və nüfuzlu üzvünə çevrilmişdir. İldən-ilə müasirləşən, beynəlxalq nüfuzunu gündən-günə artıran, xarici sərmayələr üçün getdikcə daha açıq olan Azərbaycan Respublikasında nümunəvi sabitlik şəraitində 23 ildən çoxdur irimiqyaslı layihələri gerçəkləşdirməkdən qürur hissi keçirən bir şirkət kimi, gələcəkdə də dost və qardaş Azərbaycanın daha sürətli inkişafı naminə xidmət etməyə hazır olduğumuzu bildiririk.

Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinin yüksək səviyyədə keçirilməsi ilə bağlı xalqın sevincini paylaşaraq, bu əlamətdar və tarixi hadisəyə həsr olunmuş Tekfen Filarmoniya Orkestrinin "100 il" adlı konsertinin təşkil ediləcəyindən şərəf duyuruq.

Möhtərəm cənab Prezident, Sizi bir daha təbrik edir, Zati-alinizə möhkəm cansağlığı, şərəfli fəaliyyətinizdə böyük uğurlar, Azərbaycan Respublikasına daim sülh, rifah və əmin-amanlıq arzulayıram.

*Dərin hörmət və ehtiramla,*

**Levent Kafkaslı**
**Türkiyənin "TEKFEN İnşaat" şirkətinin prezidenti**

# Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib

**Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Palatasının növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin V hissəsinə və "Konstitusiya Məhkəməsi haqqında" Qanunun 7.1-ci maddəsinə əsasən, vətəndaş E.Ağayevin məhkəmə aktlarından verdiyi şikayətə baxılaraq, Konstitusiya Məhkəməsi Plenumunun icraatına qəbul olunması haqqında qərardad çıxarılıb.

Şikayətə mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun iyunun 22-nə təyin edilmiş iclasında baxılacaq.

**AZƏRTAC**

# Mayami şəhərində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qeyd olunub

**Florida ştatının Mayami şəhərində fəaliyyət göstərən Azərbaycan-Amerika Mədəniyyət Assosiasiyası Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi ilə əlaqədar təntənəli bayram şənliyi keçirib.**

AZƏRTAC xəbər verir ki, tədbir zamanı Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, yeni qurulmuş dövlətin gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərməsi, həmin dövrdə demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq və sair sahələrdə həyata keçirilmiş işlər barədə qonaqlara geniş məlumat verilib.

Bayram gecəsində Mayamidə və ətraf dairələrdə yaşayan Azərbaycan icmasının üzvləri iştirak edib.

Xatırladaq ki, mayın əvvəlində Mayami şəhərinin yerləşdiyi Mayami-Deyd dairəsinin meri Karlos Ximenes Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar rəsmi bəyannamə imzalayaraq, 28 may tarixini Mayami-Deyd dairəsində Azərbaycan Milli Günü elan edib və bütün dairə sakinlərini Azərbaycan xalqının çoxsaylı töhfələrini qeyd etməyə çağırıb.

**AZƏRTAC**

# Xronika

## ÖTƏN GÜNLƏRİN TARİXİ ANLARI



*2018-ci il aprelin 11-də keçirilmiş Prezident seçkilərində xalqın böyük istəyi və seçimi ilə möhtərəm İlham Heydər oğlu Əliyev azad, ədalətli, şəffaf və demokratik şəraitdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.*

*Prezidentin Azərbaycana, xalqa sədaqət andı içdiyi uğurlu gündən başlayaraq onun gərgin iş günü tükənməz enerji ilə, çoxcəhətli ictimai-siyasi fəaliyyətlə davam edir.*

*Böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin siyasi kursunu, onun keçdiyi şərəfli yolu ləyaqətlə davam etdirən möhtərəm İlham Əliyev hər bir Azərbaycan vətəndaşının prezidentidir. Ölkəmizin həyatında yeni mərhələnin reallaşması onun yorulmaz fəaliyyəti, dərin zəkası, uzaqgörənliyi ilə sıx bağlıdır.*

*İlham Əliyevin gündəlik gərgin əməli fəaliyyəti sayəsində ölkəmizin ictimai-iqtisadi və sosial həyatının misli görünməmiş yüksəlişi bütün dünya ictimaiyyətinin də diqqət mərkəzindədir. Bu gün Azərbaycan böyük yüksəliş yolundadır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il aprel ayının 18-dən başlayan gündəlik fəaliyyəti, səfərləri, görüşləri, çıxışları, nitqləri, məruzələri, müsahibələri və qəbulları ardıcıllıqla yada salınacaq, oxucuların nəzərinə çatdırılacaqdır. Burada həmin "Xronika–ötən günlərin tarixi anları" təqdim olunur.*

**"Respublika".**

Xronika Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Azərbaycan Respublikasının Prezidenti: Gündəlik fəaliyyətin xronikası" adlı elektron biblioqrafik göstəricisinin materialları əsasında hazırlanmışdır.

*(əvvəli 20, 21, 25 aprel və 2, 13, 20 may tarixli saylarımızda)*

### 17 may 2018-ci il

- **Kamerun Respublikasının Prezidenti Zati-aliləri cənab Pol Biyaya:** Kamerun Respublikasının milli bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 18 may 2018-ci il

- Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının yeni inzibati binasının açılışında iştirak edib.

### 19 may 2018-ci il

- **Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının Sədri Zati-aliləri cənab Migel Dias-Kanel Bermudesə:** Kuba Respublikasında baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başsağlığı.

### 21 may 2018-ci il

- Prezident İlham Əliyev Beynəlxalq Əmək Təşkilatının baş direktorunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.
- **Serbiya Prezidenti Aleksandr Vuçiçin Azərbaycana rəsmi səfəri:** rəsmi qarşılanma mərasimi.
- **Serbiya Prezidenti Aleksandr Vuçiçin Azərbaycana rəsmi səfəri:** Azərbaycan və Serbiya prezidentlərinin təkbətək görüşü olub.
- **Serbiya Prezidenti Aleksandr Vuçiçin Azərbaycana rəsmi səfəri:** Azərbaycan və Serbiya prezidentlərinin geniş tərkibdə görüşü.
- **Serbiya Prezidenti Aleksandr Vuçiçin Azərbaycana rəsmi səfəri:** Azərbaycan-Serbiya sənədləri imzalanıb.
- **Serbiya Prezidenti Aleksandr Vuçiçin Azərbaycana rəsmi səfəri:** Azərbaycan və Serbiya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər: Prezident İlham Əliyevin bəyanatı.
- **Serbiya Prezidenti Aleksandr Vuçiçin Azərbaycana rəsmi səfəri: Ali qonağın şərəfinə:** mayın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından ölkəmizdə rəsmi səfərdə olan Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiçin şərəfinə rəsmi ziyafət verilib.

### 22 may 2018-ci il

- Prezident İlham Əliyev Bakıda yüksəkgərginlikli avadanlıqlar zavodunun açılışında iştirak edib.
- "Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr" beynəlxalq konfransının iştirakçılarına: Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr" mövzusunda beynəlxalq konfransın işə başlaması münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 23 may 2018-ci il

- **Gürcüstanın Prezidenti zati-aliləri cənab Giorgi Marqvelaşviliyə:** Müstəqillik Günü və Gürcüstan dövlətçiliyinin bərpasının 100 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 24 may 2018-ci il

- **Prezident İlham Əliyev Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park" yaşayış kompleksinin açılışında iştirak edib:** Prezident İlham Əliyevin çıxışı.
- Prezident İlham Əliyev Qaradağ rayonunda yenidən qurulan Lökbatan-Qobu avtomobil yolunun açılışında iştirak edib.

### 25 may 2018-ci il

- **Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti Zati-aliləri cənab Mulatu Teşomeyə:** Efiopiya Federativ Demokratik Respublikasının milli bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.

### 26 may 2018-ci il

- **Prezident İlham Əliyev ADA Universitetində keçirilən məzun günündə iştirak edib:** Prezident İlham Əliyevin çıxışı.

### 27 may 2018-ci il

- Azərbaycan Prezidenti İlham Əliyev Fransanın Avropa və xarici işlər nazirini qəbul edib.

### 28 may 2018-ci il

- Prezident İlham Əliyev Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisini qəbul edib.
- **Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul təşkil olunub:** Prezident İlham Əliyev rəsmi qəbulda iştirak edib: Prezident İlham Əliyevin nitqi.
- Prezident İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə ucaldılmış abidəni ziyarət edib.
- **Bakı Kristal Zalında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilən təntənəli konsert keçirilib:** Prezident İlham Əliyev konsertdə olub.

### 29 may 2018-ci il

- **Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimi keçirilib:** Prezident İlham Əliyev mərasimdə iştirak edib: Prezident İlham Əliyevin nitqi.
- Prezident İlham Əliyev XXV yubiley Beynəlxalq "Xəzər Neft və Qaz-2018" sərgisi ilə tanış olub.
- **XXV Beynəlxalq "Xəzər Neft və Qaz" sərgi və konfransının iştirakçılarına:** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriki.
- Prezident İlham Əliyev ABŞ Dövlət katibinin köməkçisinin enerji məsələləri üzrə müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
- Prezident İlham Əliyev Qaz İxrac Edən Ölkələr Forumunun baş katibini qəbul edib.
- Prezident İlham Əliyev "Microsoft" şirkətinin Mərkəzi və Şərqi Avropa üzrə vitse-prezidentini qəbul edib.

*(davamı növbəti saylarımızda)*

# Prezident Kitabxanasının "Ramiz Mehdiyev. Elektron kitabxana" layihəsi istifadəyə verilib




**Mayın 30-da Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında görkəmli dövlət və elm xadimi Ramiz Mehdiyevin ictimai-siyasi fəaliyyətini və elmi irsini əks etdirən "Ramiz Mehdiyev. Elektron kitabxana" layihəsi istifadəçilərin ixtiyarına verilib.**

AZƏRTAC xəbər verir ki, elektron layihə beş fəsildən ibarətdir. "Bioqrafiya" adlanan birinci fəsildə Ramiz Mehdiyevin qısa tərcümeyi-halı öz əksini tapıb.

Layihənin "Xronologiya" adlanan ikinci fəslində Ramiz Mehdiyevin həyat və fəaliyyətinin mühüm məqamları, ictimai-siyasi fəaliyyəti, elm sahəsində atdığı addımlar, təltifləri və mükafatları haqqında məlumatlar xronoloji ardıcıllıqla işıqlandırılıb.

Akademik Ramiz Mehdiyevin Azərbaycanın dövlətçilik və fəlsəfi fikir tarixinə, müstəqil Azərbaycanda baş verən mühüm ictimai-siyasi proseslərə, qloballaşan dünyanın problemlərinə, yeni dünya düzəninə, ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin dövlət müstəqilliyinin qorunması və ölkəmizin dinamik inkişafı istiqamətində gördükləri titanik fəaliyyətlərinə aid qələmə aldığı kitabların elektron versiyaları "E-Kitablar" fəslində istifadəçilərə təqdim edilir. Bu fəsildə akademik Ramiz Mehdiyevin millətlərarası münasibətlərə, erməni iddialarına, azərbaycanlıların məruz qoyulduqları soyqırımı gerçəkliklərinə aid əsərlərinin elektron versiyaları da toplanılıb. Bu fəsildə, həmçinin müəllifin müxtəlif dillərdə çap edilən kitabları oxuculara təqdim edilir.

Layihənin dördüncü fəsli "E-Məqalələr" adlanır. Bu fəslin "Elmi məqalələr" adlanan bölməsində akademik Ramiz Mehdiyevin dövri mətbuatda və elmi məcmuələrdə müxtəlif dillərdə dərc edilən məqalələrinin elektron versiyaları, həmin fəslin "Haqqında" adlanan bölməsində isə akademikin əsərləri haqqında yazılan məqalələrin və resenziyaların elektron versiyaları öz əksini tapır.

Elektron kitabxananın sonuncu fəsli olan "Biblioqrafiya" fəslinin "Əsərləri" adlanan bölməsində Ramiz Mehdiyevin əsərlərinin, redaktoru və buraxılışına məsul olduğu kitabların, çıxışlarının, məruzələrinin, müsahibələrinin və məqalələrinin biblioqrafik təsviri verilir. Həmin fəslin "Haqqında" adlanan bölməsində isə akademikin haqqında yazılan kitabların biblioqrafik təsviri öz əksini tapır. 2005-ci ildən bu günədək akademikin haqqında dərc edilən məqalələrin Azərbaycan və rus dillərində biblioqrafiyası "Məqalələr" adlanan bölmədə ayrı-ayrı illər üzrə toplanılıb.

http://ramizmehdiyev.preslib.az/ domenində yerləşdirilən elektron kitabxananın materialları müntəzəm olaraq yenilənilir.

**AZƏRTAC**

*Əli HƏSƏNOV:*

# Cənub Qaz Dəhlizi Azərbaycanın liderliyi ilə həyata keçirilən qlobal və tarixi layihədir



**Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov mayın 29-da Bakıda rəsmi açılışı keçirilən Cənub Qaz Dəhlizinin əhəmiyyəti ilə bağlı Facebook sosial şəbəkəsindəki səhifəsində status paylaşıb. AZƏRTAC statusu təqdim edir.**

* * *

### Cənub Qaz Dəhlizinin qısa tarixi və texniki göstəriciləri

Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra onun nəhəng neft və qaz ehtiyatlarının hasilatı və dünya bazarına çıxarılması gündəlikdə duran ən mühüm məsələlərdən biri olub. Ümummilli lider Heydər Əliyevin böyük səyləri nəticəsində 1994-cü il sentyabrın 20-də "Əsrin kontraktı"nın imzalanması Azərbaycanın güclü iqtisadi potensialının formalaşdırılmasında müstəsna rol oynayıb, regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə böyük töhfə verib.

Azərbaycanın neft ehtiyatlarının dünya bazarına çıxarılması ilə bağlı məsələlər həll edildikdən və 2006-cı ildə Bakı Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildikdən sonra böyük Azərbaycan qazının Avropa qitəsinə nəqli ciddi müzakirə mövzusuna çevrilib.

2007-ci il iyulun 3-də Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağından hasil edilən təbii yanacaq Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri ilə Türkiyənin qaz kəmərləri sisteminə daxil olub. NABUCCO da daxil olmaqla təklif edilən müxtəlif variantlar ətrafında aparılan çoxsaylı müzakirələr nəticə vermədiyinə görə Azərbaycan növbəti dəfə öz liderlik keyfiyyətlərini nümayiş etdirib və yeni "Cənub Qaz Dəhlizi" ideyasını irəli sürüb.

2011-ci ildə Avropa İttifaqı ilə Azərbaycan Xəzərdən Avropaya birbaşa qaz nəql edən marşrutların yaradılmasını dəstəkləyən Birgə Bəyanat - strateji enerji əməkdaşlığına dair memorandum imzalayıb və bununla da "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşdırılması ilə bağlı tarixi addım atılıb.

2012-ci il iyunun 26-da Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair Saziş imzalanıb və hər iki dövlətin qanunverici orqanları həmin Sazişi ratifikasiya edib.

2013-cü il iyunun 30-da isə TAP layihəsi üzrə beynəlxalq saziş imzalanıb. TAP və Şahdəniz konsorsiumlarının imzaladığı sazişlə ilk dəfə olaraq Azərbaycan qazı Avropa bazarına birbaşa çıxış əldə edib.

2015-ci ildə Cənub Qaz Dəhlizi Məşvərət Şurasının birinci iclası, sonrakı illərdə isə daha üç toplantı keçirilib və layihənin reallaşdırılması ilə bağlı mühüm qərarlar qəbul olunub.

Beləliklə, Azərbaycanın liderliyi və beynəlxalq tərəfdaşları ilə birgə səyləri nəticəsində Cənub Qaz Dəhlizinin 4 komponenti - "Şahdəniz-2", Azərbaycandan başlayaraq Gürcüstan-Türkiyə sərhədinə kimi uzanan Cənubi Qafqaz Boru Kəməri, Türkiyə ərazisindən keçən TANAP və Yunanıstan, Albaniya və İtaliyanı birləşdirən TAP-la bağlı prinsipial razılaşmalar əldə olunub və layihənin gerçəkləşdirilməsinə başlanılıb.

Cənub Qaz Dəhlizinin uzunluğu 3,5 min kilometr təşkil edir. Kəmər 1,2 trilyon kubmetr ehtiyata malik "Şahdəniz" yatağından qazın hasilatını və Avropa bazarına ötürülməsini təmin edəcək. Layihə 40 milyard dollar həcmində dəyərləndirilir.

İyunun 12-də TANAP-ın rəsmi açılışından sonra Türkiyə bazarına 6 milyard kubmetr qaz ötürüləcək, 2020-ci ildə isə daha 20 milyard kubmetr qaz Avropaya nəql ediləcək. 2026-cı ilə kimi kəmərin ötürmə qabiliyyətinin 31 milyard kubmetrədək artırılması mümkündür. Növbəti mərhələdə Türkmənistan, İran və İraq qazının bu kəmər vasitəsilə dünya bazarına çıxarılması məsələsi nəzərdən keçirilə bilər.

Məhz Prezident İlham Əliyevin qətiyyəti, milli maraqlara əsaslanan düşünülmüş və prinsipial siyasəti Cənub Qaz Dəhlizinin həyata keçirilməsini təmin edib.

### Cənub Qaz Dəhlizi Azərbaycanın liderliyi ilə həyata keçirilən nəhəng beynəlxalq layihədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cənub Qaz Dəhlizinin açılış mərasimində qeyd edib ki, bu layihələrin həyata keçirilməsi beynəlxalq əməkdaşlıq olmadan mümkün olmazdı. Cənub Qaz Dəhlizinin icrasında yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya iştirak edir, eyni zamanda, üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqronun da növbəti mərhələdə bu layihəyə qoşulacağı gözlənilir. Bu, artıq layihənin qlobal xarakterini və böyük beynəlxalq əməkdaşlıq platforması üzərində ucaldığını göstərir.

Cənub Qaz Dəhlizi ilə nəql olunan təbii yanacağın 9 Avropa şirkəti tərəfindən alınması nəzərdə tutulub, Bunlar ingilis-holland "Shell" şirkəti, Bolqarıstanın "Bulgargaz", Yunanıstanın "DEPA", Almaniyanın "Uniper", Fransanın "Engie", İtaliyanın "Hera Trading", "Edison" və "Enel" və İsveçrənin "AXPO" şirkətləridir.

Azərbaycan, Gürcüstan və Türkiyə arasında olan əməkdaşlıq Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və digər önəmli layihələrin gerçəkləşməsində baza rolunu oynayır.

Digər mühüm enerji layihələrində olduğu kimi, ABŞ Cənub Qaz Dəhlizinin reallaşmasına siyasi və mənəvi dəstək göstərib və hərtərəfli kömək edib.

ABŞ Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı son 3 məktubda bildirib:

*- Azərbaycan və ABŞ mürəkkəb regional çağırışların həlli üçün birgə işləyərək sıx tərəfdaşlıq edirlər;*

*- Tramp təhlükəsizlik və terrorizmlə mübarizə sahəsində ikitərəfli əməkdaşlığı, habelə uzunmüddətli ticarət əlaqələrini yüksək qiymətləndirir;*

*- Qarşıdan gələn aylar Dağlıq Qarabağ münaqişəsinin həlli üçün imkanlar açacaq, bu isə ABŞ-Azərbaycan əməkdaşlığının genişləndirilməsinə daha yaxşı şərait yaradacaq;*

*- Azərbaycan firavan və qlobal iqtisadiyyata bağlı ölkədir;*

*- Azərbaycanın böyük neft yataqları dünya enerji bazarına sabitlik gətirir;*

*- Azərbaycanın qaz hasilatı Türkiyə və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə töhfə verəcək;*

*- ABŞ Azərbaycanla 30 illik əməkdaşlığın Cənub Qaz Dəhlizi kimi mühüm nailiyyətini Azərbaycanla birlikdə qeyd edir;*

*- ABŞ Azərbaycanın enerji layihələrinin uğurunu möhkəmləndirəcək iqtisadi və hüquqi islahatların davam etdirilməsini dəstəkləyir;*

*- Bizim böyük dövlətlərimizin və Qafqaz regionunun daha firavan, dinc və təhlükəsiz olması naminə Sizinlə birgə işləmək əzmindəyəm.*

Göründüyü kimi, Prezident Donald Tramp ABŞ ilə Azərbaycan arasında mövcud olan əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirir və bu əməkdaşlığın davam etdirilməsinə sadiq olduğunu bəyan edir.

ABŞ Azərbaycanı regionun güclü, firavan, qlobal iqtisadiyyata bağlı, təhlükəsizlik və sabitliyin təmin olunmasına mühüm töhfə verən ölkəsi kimi qiymətləndirir. Prezident Donald Tramp bundan sonrakı dövrdə də Prezident İlham Əliyevlə işləmək əzmini ifadə edir.

ABŞ ən yüksək səviyyədə Azərbaycanla əlaqələrinin dəyərini xüsusi qeyd edir və birgə əməkdaşlığın davam etdirilməsindən məmnunluğunu açıq göstərir.

Lakin Amerikada fəaliyyət göstərən erməni lobbisi və onun təsiri altında olan Kristofer Smit, Bred Şerman kimi konqresmenlər hər vəchlə bu əməkdaşlığa xələl gətirməyə və iki dövlət arasında strateji tərəfdaşlıq əlaqələrini pozmağa çalışırlar.

Onlar Amerika dövlətinin deyil, erməni lobbisinin və Ermənistanın maraqlarını müdafiə və ifadə edirlər. Bu tipli şəxslərin Amerikanın dövlət siyasəti və ABŞ rəsmilərinin Azərbaycana müsbət münasibəti ilə heç bir əlaqəsi yoxdur.

Böyük Britaniya Cənub Qaz Dəhlizinin reallaşmasına güclü dəstək verib, BP şirkəti energetika sahəsində həyata keçirilən çoxsaylı layihələrin əsas investoru olub.

Avropa İttifaqı Cənub Qaz Dəhlizi və digər enerji layihələrinin icrasında çox önəmli rol oynayıb. 2011-ci ildə Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamənin imzalanması ilə bu mühüm layihənin əsası qoyulub, sonrakı dövrdə də Avropa İttifaqı bu çərçivədə həyata keçirilən tədbirlərə güclü dəstək verib.

### Cənub Qaz Dəhlizinin əhəmiyyəti

Cənub Qaz Dəhlizi:

*- Qarşıdan gələn 100 il ərzində Azərbaycan xalqına xidmət edəcək və milli iqtisadiyyatın inkişafında mühüm amil olacaq;*

*- Azərbaycanın regionda və Avropada əhəmiyyətinin artmasını, Azərbaycanla Qərb arasında münasibətlərin daha yüksək pilləyə qalxmasını şərtləndirəcək. ABŞ Prezidenti D.Tramp bildirib: "Enerji sahəsində ABŞ-Azərbaycan əməkdaşlığı bu il ilk qazın Cənub Qaz Dəhlizi vasitəsilə nəqli sayəsində zirvəyə yüksəlib";*

*- Azərbaycanın təkcə enerji ixrac edən ölkə kimi deyil, həm də onu nəql edən və tranzit ölkə kimi əhəmiyyəti artacaq;*

*- Avropanın enerji təchizatının şaxələndirilməsində ciddi amilə çevriləcək;*

*- Region ölkələrinin öz enerji resurslarını dünya bazarına çıxarmaq üçün yeni mənbə rolunu oynayacaq;*

*- Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində böyük rol oynayacaq;*

*- Dövlətlər və xalqlar arasında qarşılıqlı əməkdaşlığın, işgüzar əlaqələrin inkişafına töhfə verəcək;*

*- Regionda təhlükəsizliyin və sabitliyin təmin olunmasına ciddi təsir göstərəcək;*

*- Layihədə iştirak edən bütün ölkələr, şirkətlər mənfəət əldə edəcək, yeni iş yerləri yaradılacaq və insanların rifahının yüksəlməsinə müsbət təsir göstərəcək.*

Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Cənub Qaz Dəhlizi Azərbaycanın liderliyi ilə həyata keçirilən, tarixi əhəmiyyətə malik, xalqımızın firavan gələcəyini təmin edən, regionda, Avropada təhlükəsizliyin, əməkdaşlığın möhkəmlənməsinə xidmət göstərən qlobal layihədir.

**AZƏRTAC**

# Akademik Arif Paşayev N.E.Jukovski adına Milli Aerokosmik Universitetinin fəxri professoru adına layiq görülüb



**N.E.Jukovski adına Milli Aerokosmik Universiteti - Xarkov Aviasiya İnstitutunun Elmi Şurasının qərarı ilə Milli Aviasiya Akademiyasının rektoru, Azərbaycanın görkəmli alimi, akademik Arif Paşayev aviasiya və texnika elminin inkişafındakı böyük xidmətlərinə görə universitetin fəxri professoru adına layiq görülüb. Bu barədə AZƏRTAC-a Xarkov Aviasiya İnstitutunun mətbuat xidmətindən məlumat verilib.**

Məlumatda qeyd olunur ki, N.E.Jukovski adına Milli Aerokosmik Universiteti Arif Paşayev kimi fəxri professoru olmasından qürur hissi keçirir. Arif Paşayev tanınmış ictimai xadim, yüksək elmi-praktiki potensiala malik olan, Azərbaycanda aviasiya təhsilinin müasir səviyyədə inkişafı üçün gərgin əmək sərf edən alimdir.




1957-ci ildə Ukraynanın Odessa Rabitə Universitetini (keçmiş Odessa Elektrotexnika Rabitə İnstitutu) radiofizik ixtisası üzrə bitirib. Həmin universitetin və Ukrayna Milli Aviasiya Universitetinin fəxri doktoru, Ukraynadakı Azərbaycan diasporunun fəxri üzvüdür. Arif Paşayev "Mədəniyyət səfiri" kimi hər iki ölkənin elmi-mədəni, ictimai əlaqələrinin inkişafında səmərəli fəaliyyəti ilə nümunələr göstərir.

"N.E.Jukovski adına Milli Aerokosmik Universiteti - Xarkov Aviasiya İnstitutu Elmi Şurasının Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi yubileyi günlərinə təsadüf edən belə bir elmi qərarı bir daha sübut edir ki, Arif Paşayev dünyada tanınan və Azərbaycana şöhrət qazandıran alimdir. Onun çoxillik fəaliyyəti nəticəsində mühüm elmi nailiyyətlər əldə edilib. Tanınmış ictimai xadim Arif Paşayevin Azərbaycan ilə Ukrayna arasında elmi mübadilənin və təcrübə mübadiləsinin inkişafında da böyük xidmətləri var", - deyə universitetin məlumatında qeyd edilir.

**AZƏRTAC**

# Hazırda Dünya Bankının dəstəyi ilə Azərbaycanda 9 layihə icra olunur

**Hazırda Dünya Bankının dəstəyi ilə Azərbaycanda 9 layihə icra olunur.**

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu barədə iqtisadiyyat naziri Şahin Mustafayevin Azərbaycanda səfərdə olan Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon ilə görüşündə deyilib.

Görüşdə Azərbaycan və Dünya Bankı arasında əlaqələrin mövcud vəziyyəti və əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

Nazir Şahin Mustafayev Azərbaycanın Dünya Bankı ilə 25 ildən çoxdur ki, əməkdaşlıq etdiyini, ölkəmizin bu əlaqələrin genişlənməsində maraqlı olduğunu vurğulayıb.

Qeyd olunub ki, Azərbaycan və Dünya Bankı arasında əməkdaşlıq çoxşaxəlidir, infrastruktur, kənd təsərrüfatı, nəqliyyat və sair sahələri əhatə edir. Dünya Bankının maliyyə və texniki dəstəyi ilə müvafiq sahələrdə reallaşdırılan layihələr bu sahələrin inkişafında əhəmiyyətli rol oynayır. Şahin Mustafayev bərk məişət tullantılarının vahid idarəçiliyi, Trans-Qafqaz Nəqliyyat Dəhlizində (TRACECA) yük daşımaları və logistika fəaliyyətinin təkmilləşdirilməsi və Dünya Bankı ilə birgə həyata keçirilən digər layihələrin əhəmiyyətini vurğulayıb, özəl sektora dəstəyin davam etdirilməsi, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi ilə əməkdaşlığa dair təkliflərini bildirib. Qeyd edilib ki, bərk məişət tullantılarının vahid idarəçiliyi layihəsi çərçivəsində görülən işlər ölkəmizdə səfərdə olan xarici nümayəndə heyətləri tərəfindən də yüksək qiymətləndirilir. Şahin Mustafayev, həmçinin Azərbaycan iqtisadiyyatı barədə məlumat verib, 2018-ci ilin ilk dörd ayında ticarət dövriyyəsinin, qeyri-neft ixracının, eləcə də strateji valyuta ehtiyatlarının artdığını vurğulayıb.

Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Mersi Tembon Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə təbriklərini çatdırıb. Ötən il Dünya Bankının Azərbaycanla əməkdaşlığının 25 illiyinin qeyd olunduğunu vurğulayan M.Tembon əlaqələrin ildən-ilə genişləndiyini diqqətə çatdırıb. Hazırda bankın dəstəyi ilə Azərbaycanda 9 layihənin icra olunduğunu bildirən Mersi Tembon yeni əməkdaşlıq istiqamətlərinə dair fikirlərini bölüşüb.

**AZƏRTAC**

# Azərbaycanın və Belçikanın xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib

**Azərbaycanın və Belçikanın xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələr keçirilib.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Xələf Xələfov, Belçika tərəfindən isə Xarici İşlər Nazirliyinin ikitərəfli əlaqələr üzrə baş direktoru Anik Van Kalster rəhbərlik edib.

Ölkələr arasında əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi üçün yüksək səviyyəli ikitərəfli səfərlərin həyata keçirilməsinin əhəmiyyətini qeyd edən nazir müavini Xələf Xələfov siyasi münasibətlərin cari səviyyəsini yüksək qiymətləndirib və ölkəmizin Belçika ilə bütün sahələrdə əməkdaşlığın dərinləşdirilməsində maraqlı olduğunu xüsusi vurğulayıb. Nazir müavini X.Xələfov Azərbaycanın və Belçikanın xarici işlər nazirlikləri arasında mütəmadi olaraq siyasi məsləhətləşmələrin aparılmasının effektiv mexanizm olduğunu və yeni əməkdaşlıq istiqamətlərinin müəyyən edilməsi baxımından faydalı olduğunu diqqətə çatdırıb.

İqtisadi sahədə əməkdaşlıq münasibətlərinin inkişafı üçün geniş potensialın olduğunu bildirən X.Xələfov Belçika şirkətlərinin ölkəmizdə həyata keçirilən layihələrdə fəal iştirak etdiyini, lakin ölkələr arasında ticarət dövriyyəsinin iki ölkənin potensialına uyğun olmadığını və mövcud imkanlardan tam istifadə edilməsinin zəruriliyini qeyd edib.

Nazir müavini X.Xələfov Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən irimiqyaslı nəqliyyat və infrastruktur layihələri haqqında ətraflı məlumat verib. Şimal-Cənub və Şərq-Qərb nəqliyyat marşrutlarının, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Asiya ölkələrinin Avropa bazarlarına çıxması, eləcə də sözügedən regionda insanlararası təmasın daha da artması üçün əlverişli imkanlar yaratdığını diqqətə çatdırıb.

Mayın 28-də Azərbaycanın dövlət müstəqilliyinin 100 illik yubileyinin təntənəli şəkildə qeyd olunduğunu vurğulayan X.Xələfov ölkəmizin demokratik ənənələrə sadiq olduğunu və bu yolla uğurla inkişaf etdiyini qeyd edib. İki ölkənin xalqları arasından təmasların daha da güclənməsi məqsədilə X.Xələfov qarşılıqlı şəkildə mədəniyyət günlərinin keçirilməsinin əhəmiyyətini vurğulayıb.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüz etdiyini, ölkəmizin ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğal edildiyini deyən nazir müavini münaqişənin regionda sülhə, sabitliyə və hərtərəfli inkişafa başlıca təhdid olaraq qalmaqda davam etdiyini, Azərbaycanın işğal faktoru ilə heç zaman barışmayacağını və ATƏT-in Minsk qrupunun həmsədrlərinin münaqişənin ədalətli həlli istiqamətində səylərini artıracağına ümidvar olduğunu bildirib. BMT Təhlükəsizlik Şurasının münaqişə ilə əlaqədar qətnamələrinin hələ də icra olunmamasından təəssüfləndiyini bildirən X.Xələfov beynəlxalq hüququn təməl prinsiplərinin, xüsusilə zor işlətməklə dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin dəyişdirilməsi cəhdlərinin qəbuledilməz olduğunu və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinin vacibliyini vurğulayıb. X.Xələfov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsinə dair Azərbaycanın haqlı mövqeyini dəstəklədiyinə görə Belçika tərəfinə təşəkkürünü bildirib.

Nazir müavini X.Xələfov Avropa İttifaqı ilə münasibətlərin inkişafında ölkəmizin maraqlı olduğunu bildirərək Belçikanın bu əlaqələrin inkişafında səylərini yüksək qiymətləndirib.

Azərbaycanın dövlət müstəqilliyinin 100 illik yubileyi münasibətilə səmimi təbriklərini çatdıran belçikalı diplomat Azərbaycan Xalq Cümhuriyyətinin qadınlara seçki hüququnu verməsini mütərəqqi tarixi hadisə kimi dəyərləndirib.

İki ölkənin xarici işlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin davam etdirilməsinin vacibliyini vurğulayan A.V.Kalster Belçika və Azərbaycan arasındakı münasibətlərin cari səviyyəsini yüksək qiymətləndirib. Diplomatik nümayəndəliklərin ikitərəfli əməkdaşlığın inkişafındakı səylərini təqdir edən A.V.Kalster son dövrlər iki ölkə arasında yüksək səviyyəli görüşlərin keçirildiyini diqqətə çatdırıb.

Ölkəsinin Azərbaycan ilə müxtəlif sahələrdə əməkdaşlıq etdiyini və bir sıra mübadilə proqramlarının həyata keçirdiyini vurğulayan belçikalı diplomat enerji sahəsində Azərbaycanın Avropa İttifaqının, xüsusilə Belçikanın strateji tərəfdaşı olduğunu və ARDNŞ ilə Belçika şirkətlərinin bu sahədə səmərəli əməkdaşlıq həyata keçirdiyini xüsusilə vurğulayıb.

A.V.Kalster ölkəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyinin dəyişməz olduğunu söyləyib, münaqişənin beynəlxalq hüquq və BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin yerinə yetirilməsi və ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə sülh yolu ilə həllinə tərəfdar olduğunu qeyd edib.

Görüşdə iki ölkə arasında humanitar, kənd təsərrüfatı, bərpa olunan enerji, turizm və digər sahələrdə əməkdaşlıq imkanları müzakirə edilib. Mədəni əlaqələrin təşviqi və viza sadələşdirilməsi məsələlərinə diqqət yetirilib.

Söhbət zamanı, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və parlamentlərarası əlaqələrin inkişafı imkanları, qarşılıqlı maraq kəsb edən regional və beynəlxalq məsələlər müzakirə edilib.

**AZƏRTAC**

# Bakıda XXV Beynəlxalq "Caspian Oil and Gas" konfransı işə başlayıb






**Mayın 30-da Bakıda XXV yubiley Beynəlxalq "Caspian Oil and Gas" konfransı işə başlayıb.**

AZƏRTAC xəbər verir ki, konfransın "Dayanıqlı gələcəyin inkişafı üçün əsas faktorlar: konsepsiya və innovativlik" adlı plenar sessiyasının moderatoru "İTE Group Plc" şirkətinin baş məsləhətçisi Endryu Vud aparıcı şirkətlərin rəhbər menecerlərini, habelə sahə üzrə nazirliklərin nümayəndələrini və nüfuzlu ekspertləri vahid müzakirə ətrafında bir araya gətirən neft-qaz konfransının bu sənaye sahəsinin inkişafına dair aktual məsələlər haqqında fikir mübadiləsi üçün yaxşı imkan yaratdığını deyib.

Azərbaycanın energetika naziri Pərviz Şahbazov deyib ki, konfrans neft-qaz sahəsinin aktual mövzularının müzakirəsi üçün ənənəvi meydançadır. Neft-qaz ixracatçısı olan Azərbaycan həyata keçirdiyi qlobal əhəmiyyətli layihələr ilə regionun, eləcə də Avropa qitəsinin enerji infrastrukturunu dəyişir.

Proqnozlara əsasən neft və qaz növbəti onilliklərdə də Azərbaycan üçün mühüm mövqeyə sahib olacağını deyən nazir bildirib ki, dünyanın neft sənayesində baş verən meyillər ölkəmizin neft siyasətinə də təsirsiz ötüşməyəcək: "Azərbaycan beynəlxalq layihələrdə etibarlı tərəfdaş kimi özünü sübut edib. İndi isə həm də neftin qiymətinin tarazlaşmasına öz töhfəsini verir. Azərbaycan OPEC+ razılaşmasına erkən qoşulub və götürdüyü öhdəlikləri daim yerinə yetirib. Beləliklə, dünya bazarında qiymətlərin sabitləşməsində rolunu göstərib".

O, Azərbaycanın neft tarixindən, "Azəri-Çıraq-Günəşli" (AÇG), "Şahdəniz" və digər yataqların əhəmiyyətindən danışaraq vurğulayıb ki, "Şəfəq-Asiman" perspektiv strukturunda, Abşeron yarımadasının dayaz sulu hissəsində kəşfiyyat işlərinin planlaşdırılması karbohidrogen ehtiyatlarının olması ilə bağlıdır. Kondensat potensialı "Şahdəniz", "Babək", "Ümid" strukturlarında gələcəkdə də neft hasilatının əldə olunmasına ümid verir. Bunlar bir daha ölkənin neft ehtiyatlarının, hətta XXI əsrin ikinci yarısında da tükənməyəcəyini söyləməyə əminlik yaradır.

Yaponiyanın iqtisadiyyat, ticarət və sənaye üzrə parlament nazirinin müavini Daisaku Hiraki isə deyib ki, Yaponiya şirkətləri Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri (BTC) və "Azəri-Çıraq-Günəşli" layihələrində səhmdardır. AÇG ilə bağlı yeni sazişin imzalanması və işlənmənin müddətinin 2050-ci ilədək uzadılması Yaponiyanın Xəzər regionu üzrə enerji strategiyası baxımından əhəmiyyət daşıyır. Bizim ölkə enerji təhlükəsizliyinin gücləndirilməsi və mənbələrin şaxələndirilməsində maraqlıdır. Yaponiya Xəzər regionu ilə yaxşı əlaqələr qurub və bu, geosiyasi əhəmiyyət daşıyır. Biz Azərbaycanla Xəzərdə yeni yataqların birgə işlənməsində maraqlıyıq".

Sessiyada çıxış edən Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Sanusi Barkindo bildirib: "İki ay ərzində artıq ikinci dəfədir ki, Azərbaycana səfər edirəm. Bakı neft sənayesinin beşiyi, sivilizasiyanın inkişafına təkan verən və öz inkişafı ilə seçilən bir şəhərdir. Azərbaycan neft və qaz sənayesinin sürətlə inkişaf etdiyi bir ölkədir. Bu ölkə 1994-cü ildə çox sərfəli neft müqaviləsi olan "Əsrin müqaviləsi"nin imzalanması ilə nüfuzlu beynəlxalq şirkətlərlə əməkdaşlığa başlayıb. Həmin vaxtdan indiyədək neft sənayesində kifayət qədər nəzərəçarpan artım müşahidə edilib. Hazırda investorlar da Azərbaycanın neft və qaz sektoruna mühüm töhfə verə biləcəyini dilə gətirir, ölkənin bu istiqamətdəki potensialını vurğulayır".

OPEC-in baş katibi qeyd edib ki, bu nailiyyətlər "Şahdəniz" yatağının fonunda əyanilik qazanır: "Layihənin ikinci fazası - dünən rəsmi açılışı olan Cənub Qaz Dəhlizi ən iri enerji layihələrindən biridir. Bu layihə ölkə iqtisadiyyatının inkişafına, regiona və dünyaya müsbət töhfəsini verəcək. Cənub Qaz Dəhlizi fundamental sürətdə bizim enerji landşaftımızı dəyişəcək".

Məhəmməd Barkindo vurğulayıb ki, mart ayında Azərbaycanda səfərdə olarkən OPEC+ bəyannaməsi və gələcək əməkdaşlığın inkişafı ilə bağlı müzakirələr aparılıb: "24 müstəqil neft hasil edən ölkələrin bir araya gətirilməsi neft sənayesi sahəsində əhəmiyyətli bir hadisədir. Burada iştirak edən ölkələr arasında əməkdaşlığın genişləndirilməsi enerji sahəsinə verilən mühüm bir töhfədir. Bu enerji bazarında stabilliyin formalaşmasına da müsbət təsirlərini göstərir. Tarixi əməkdaşlıq bəyannaməsinin imzalanması digər neft hasil edən ölkələrlə yanaşı istehlakçıların da dəstəyinin qazanılmasına gətirib çıxarıb".

O əlavə edib ki, Vyana sazişindən sonra OPEC-in görəcəyi əsas mühüm məsələlərdən biri də enerji bazarının yenidən balanslaşması, tədricən investisiyaların qoyulmasını həyata keçirməkdir: "Neft bazarında əminliyin bərpası da OPEC-in əsas vəzifələrindəndir. Bazarda gələcək şoklara və ekstremal dəyişikliklərə hazırlıq üçün xüsusi mexanizmlər həyata keçiriləcək və tədbirlər görüləcək. Biz uğurlar və nailiyyətlərin fonunda uzunmüddətli perspektivlərə nəzərdən keçirməliyik. Qarşıda duran aktual çağırışlardan biri də gələcəkdə tələbata uyğun investisiyaların qoyulmasını təmin etməkdir. 2018-ci ildə neft sənayesinə sərmayələr tədricən artır. Ancaq hələ də kifayət qədər və uzunmüddətli sərmayələr qoyulmur. Neftə olan tələbatın ödənilməsi üçün 2040-cı ilə qədər neft sənayesinə 10,4 trilyon dollar investisiyanın qoyulması tələb olunur. Bunun üçün bütün boşluqlar aradan qaldırılmalıdır. Sabit şəkildə artan tələbat tədricən ödənilməlidir. Bu çağırışlara qarşı mübarizənin yeganə yolu sıx əməkdaşlıqdan keçir".

Qaz İxrac Edən Ölkələrin Forumunun (GECF) baş katibi Yuri Sentyurin qeyd edib ki, Azərbaycan Qaz İxrac Edən Ölkələr Forumuna müşahidəçi qismində qoşulub. Ötən müddətdə Azərbaycan GECF-in fəaliyyətinin gücləndirilməsinə öz töhfəsini verib. Azərbaycanın Qaz İxrac Edən Ölkələr Forumuna qoşulması bizim üçün mühüm idi. Çünki Azərbaycan artıq beynəlxalq təbii qaz mərkəzinə çevrilib və qlobal enerji təhlükəsizliyinə öz töhfəsini verir".

O bildirib ki, 2040-cı ilədək təbii qaza olan tələbat artacaq və kömürün istehlakı azalacaq. Buna Avropada, eləcə də Asiyada maye qaza (LNG) olan tələbatın çoxalması əsas təsir göstərəcək. Təbii qaz neftdən sonra ikinci əsas enerji növü olacaq.

Konfransın digər sessiyalarında çıxış edən SOCAR-ın prezidenti Rövnəq Abdullayev deyib: "Bugünkü konfransda iştirak edən dünya enerji nəhənglərinin təmsilçilərinin bir çoxu neft-qaz sənayesində aparıcı rola malik olmaqla, bu sahənin sütunları sayılır və ötən müddətdə həm Azərbaycanın, həm də regionun inkişafında mühüm rol oynayıblar".

SOCAR-ın prezidentinin sözlərinə görə, ulu öndər Heydər Əliyev tərəfindən 25 il əvvəl hazırlanmış enerji strategiyası Xəzər dənizi hövzəsində beynəlxalq əməkdaşlıq üçün əlverişli zəmin yaradıb və regionun enerji xəritəsini əhəmiyyətli dərəcədə dəyişib: "Azərbaycan öz enerji təhlükəsizliyini uzun müddət üçün təmin etməklə yanaşı, regionun makroiqtisadi yüksəlişində əhəmiyyətli rola, etibarlı və stabil investisiya mühitinə sahib olub. "Əsrin müqaviləsi" və transmilli şirkətlərlə birgə səmərəli əməkdaşlığımız sayəsində Xəzərin Azərbaycan sektorundakı dərinsulu yataqların işlənməsi üçün ölkəmizə zəruri maliyyə vəsaitləri və texnologiyalar cəlb edilib. Həmin resursların səmərəli idarə olunması sayəsində böyük uğurlar qazanılıb. Bir tərəfdən əldə edilən maliyyə vəsaitləri sərmayə olaraq dəyər zəncirimizin müxtəlif həlqələrinə yatırılıb, o biri tərəfdən dünyanın aparıcı şirkətləri ilə əməkdaşlığımızı beynəlxalq müstəviyə gətirməyə müvəffəq olunub. Xarici tərəfdaşlarımız da bu güvən verən əməkdaşlıqdan məmnun qalıblar. Qarşılıqlı faydalı tərəfdaşlığımız nəticəsində 2017-ci ilin sentyabrında hələ "Əsrin müqaviləsi" yekunlaşmadan, "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinsulu hissəsinin 2050-ci ilə qədər birgə işlənməsinə dair yeni sazişin imzalanması məhz bu məmnunluğun ifadəsidir. Tərəfdaş şirkətlərin ölkəmizə kapital qoyuluşunu daha da artıracağına təminat verən bu yeni saziş, eyni zamanda, onların Azərbaycana göstərdikləri yüksək etimadın təzahürüdür".

R.Abdullayev qeyd edib ki, bir neçə il əvvəl Azərbaycanın zəngin təbii qaz ehtiyatlarını realizə etmək üçün qarşımızda müxtəlif imkanlar mövcud olsa da Avropaya ixrac kəmərinin tikilməsinə üstünlük verilib. Hasil olunacaq qaz həcmlərinin dünya bazarlarına çıxarılması təşəbbüsü ilə çıxış edərək, "Cənub Qaz Dəhlizi" layihəsinin əsas ideya müəllifi Azərbaycandır.

"Cənub Qaz Dəhlizi" layihəsini müxtəlif ölkələrin qanunvericiliyinə əsaslanan, iki qitədə və bir neçə ölkədə həyata keçirilən kifayət qədər mürəkkəb bir meqa layihə adlandıran SOCAR-ın prezidenti deyib: "Buna baxmayaraq, bu gün biz artıq təbii qazın Xəzər dənizindən Avropaya nəql olunmasının bir addımlığındayıq. Türkiyəyə ilk kommersiya qazının çatdırılması üçün lazım olan bütün infrastruktur artıq yekunlaşıb. Dünən Cənub Qaz Dəhlizinin Türkiyəyə qədər olan hissəsi istismara verildi, iyunun 12-də isə SOCAR-ın operator olduğu TANAP layihəsinin istismara verilməsi planlaşdırılır. Beləliklə, bu möhtəşəm layihə başa çatmaq üzrədir: dörd seqmentdən üçü artıq istifadəyə verilir. Əminəm ki, ən yaxın zamanda bu uzunmüddətli çalışmaların bəhrələrini görə biləcəyik".

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz bildirib ki, ötən il BP Azərbaycanda fəaliyyətinin 25 illiyini qeyd edib: "Şadıq ki, biz Azərbaycanın bütün iri layihələrində iştirak etdik. Dünən biz Cənub Qaz Dəhlizinin açılışını etdik. Bu, minlərlə insanın böyük zəhmətinin nəticəsidir. Layihədə iştirak edən bütün tərəfləri təbrik edirik".

Q.Counz əlavə edib ki, 2010-cu ilin oktyabr ayında BP ilə SOCAR Xəzər dənizinin Azərbaycan sektorundakı "Şəfəq-Asiman" perspektiv strukturunun birgə geoloji-kəşfiyyatı və işlənməsi haqqında hasilatın pay bölgüsü sazişi (HPBS) imzalayıb. HPBS-nin müddəti 30 ildir və sazişə əsasən "BP Exploration (Caspian Sea) Ltd." şirkəti əməliyyatçı olmaqla müqavilədə 50 faiz paya, SOCAR isə qalan 50 faiz paya malikdir. "Şəfəq-Asiman" bloku Bakıdan təxminən 125 kilometr (78 mil) cənub-şərqdə yerləşir və təxminən 1 100 kvadrat kilometr ərazini əhatə edir. Bu dəniz blokunda indiyədək heç bir geoloji-kəşfiyyat işi aparılmayıb. Blok dənizin dərinsulu hissəsində suyun dərinliyinin təxminən 650-800 metr olduğu bir ərazidə yerləşir və kollektorun dərinliyi təxminən 7 min metrdir: "2012-ci ilin əvvəllərində "Giləvar" seysmik gəmisi "Şəfəq-Asiman" üzrə 3 ölçülü seysmik tədqiqat proqramını başa çatdırandan bəri biz əldə edilmiş məlumatın təhlilini aparırıq. Bu, həmin müqavilə ərazisində indiyədək aparılmış ilk 3 ölçülü seysmik tədqiqatdır. 2014-cü ilin birinci yarısında məlumatın təhlili tamamlandı və onun interpretasiyasına başlanıb. "Şəfəq-Asiman" üzrə ilk kəşfiyyat quyusunun planlaşdırılması işləri də davam etməkdədir. "Şəfəq-Asiman" perspektiv strukturu yeni "Şahdəniz" ola bilər".

"Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətinin (CQD) baş direktoru Əfqan İsayev deyib ki, "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsinin işlənməsi üzrə görüləcək işlərin (ilk qazın hasilatına dair) 99,5 faizi, Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) üzrə işlərin 100 faizi, TANAP boru kəmərinin inşası üzrə işlərin 93 faizi, TAP kəmərinin inşası üzrə işlərin 73 faizi icra edilib.

O qeyd edib ki, indiyədək Cənub Qaz Dəhlizinin tərkibi olan layihələrdə CQD-nin mülkiyyətində olan iştirak paylarının maliyyələşdirilməsinə 9 milyard dollar məbləğində investisiya qoyulub: "Bu ilin aprel ayının sonunadək "Cənub Qaz Dəhlizi" layihəsinə tərəfdaşlarla birgə 30 milyard dollardan çox vəsait sərf olunub. Ümumi dəyəri 22,7 milyard dollar təşkil edən "Şahdəniz-2" layihəsinə 17,7 milyard dollar, Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi layihəsinə 4,2 milyard dollar, TANAP-a 5,4 milyard dollar, TAP layihəsinə isə 2,9 milyard avro xərclənib".

TAP-ın prezidenti Valter Peeraer deyib ki, Azərbaycan təbii qazını Avropaya daşıyacaq TAP boru kəməri layihəsi üzrə işlərin 73 faizi icra edilib: "TAP qaz boru kəmərinin inşası üzrə işlər qrafik üzrə gedir. Biz plan üzrə bütün işlərimizi uğurla davam etdiririk. İki il əvvəl başladığımız layihə boru kəmərinin keçdiyi bütün ölkələrdə - Albaniya, İtaliya və Yunanıstan ərazisində uğurla icra olunur. Demək olar ki, işlərin 73 faizi icra edilib", - deyə TAP-ın prezidenti qeyd edib.

V.Peeraer bildirib ki, Albaniya və Yunanıstan ərazisində TAP layihəsinin icrası da uğurla davam etdirilir: "Hər iki dövlətin hökumətləri tərəfindən bu istiqamətdə görülən işləri yüksək qiymətləndiririk. TAP boru kəməri layihəsinin Adriatik dənizindən keçəcək seqmenti isə 2019-cu ilədək sona çatdırılacaq".

İki gün davam edəcək konfransda 49-dan artıq spiker öz məruzələri ilə çıxış edəcək. Bu il konfransda aparıcı şirkətlərin 500-dən çox şirkət rəhbərləri, sənaye nazirliklərinin nümayəndələri, beynəlxalq və yerli ekspertlər var. Konfransda aparıcı enerji və neft-qaz şirkətlərinin rəhbərlərini, eləcə də sənaye nazirliklərinin nümayəndələri və nüfuzlu sənaye mütəxəssislərini bir araya toplayır və neft-qaz sənayesinin inkişafı üzrə aktual məsələlərin müzakirəsi üçün imkanlar yaradır.

"Caspian Oil and Gas" konfransı Azərbaycanın Energetika Nazirliyi və SOCAR-ın dəstəyi, "İteca Caspian" və "İTE Group" şirkətlərinin təşkilatçılığı ilə keçirilir.

**AZƏRTAC**

# Şabranda beynəlxalq mədəni marşrutlarla bağlı keçirilən konfransa 13 ölkədən 40-a yaxın mütəxəssis qatılıb






**Avropa Tarixi Termal Şəhərlər Assosiasiyası (EHTTA) Baş Assambleyasının “Termal şəhərlər” beynəlxalq mədəni marşrutunun növbəti konfransı mayın 30-da Şabranda təşkil olunub.**

Konfransa 13 ölkədən 40-a yaxın mütəxəssis - Avropa Tarixi Termal Şəhərlər Assosiasiyasının yüksək səviyyəli nümayəndələri, sağlamlıq və müalicəvi imkanları geniş olan xarici ölkələrin şəhər və bələdiyyə rəhbərləri qatılıb. Azərbaycan isə konfransda sağlamlıq-müalicəvi imkanlarına malik Naxçıvan Muxtar Respublikası, Şabran, Naftalan, Qəbələ, Xaçmaz, Quba, Qusar kimi rayon və şəhərlərin nümayəndələri ilə təmsil olunur.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, mədəniyyət naziri Əbülfəs Qarayev konfransın açılış mərasimində çıxış edərək Azərbaycanın qoşulduğu beynəlxalq mədəni marşrutlar barədə ətraflı məlumat verdi. Ölkəmizdə turizm sahəsinin inkişafı ilə bağlı dövlət tərəfindən görülən işlər barədə danışan nazir bildirdi ki, Azərbaycanda turizm sənayesi son illərdə yeni mərhələyə qədəm qoyub. Bu işlərin məntiqi nəticəsi olaraq hər il Azərbaycana gələn turistlərin sayı artır.

Əbülfəs Qarayev qeyd etdi ki, Prezident İlham Əliyevin Sərəncamına əsasən, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi yaradılıb. Bu Sərəncam mədəniyyət və turizm sahəsində dövlət idarəçiliyinin təkmilləşdirilməsi sahəsində böyük əhəmiyyətə malikdir.

Nazir ölkəmizin mədəni irsinin və tarixi abidələrinin təbliği məqsədilə bir çox beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq əlaqələri qurulduğunu diqqətə çatdırdı. Bildirildi ki, Mədəniyyət Nazirliyinin uğurla əməkdaşlıq etdiyi beynəlxalq qurumlardan biri də Avropa Tarixi Termal Şəhərlər Assosiasiyasıdır. Məhz bu əməkdaşlıq nəticəsində 2016-cı il yanvarın 21-də Avropa Tarixi Termal Şəhərlər Assosiasiyasının Baş Assambleyası tərəfindən “Qalaaltı” kurortu assosiasiyanın “Termal şəhərlər” beynəlxalq mədəni marşrutuna qoşulub.

Avropa Tarixi Termal Şəhərlər Assosiasiyasının prezidenti Giuseppe Bellande beynəlxalq tədbirin əhəmiyyətindən danışaraq, “Termal şəhərlər” beynəlxalq mədəni marşrutunun növbəti konfransının Şabranda keçirilməsi barədə qərarın 2016-cı ildə İtaliyanın Salsomaggiore şəhərində verildiyini bildirib. Azərbaycanın termal sulara malik bir sıra bölgələrinin olduğunu qeyd edən G.Bellande ölkəmizdə termal turizmin inkişaf imkanlarını yüksək qiymətləndirib.

Şabran Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov isə çıxışında rayonun mədəni irsindən, turizm potensialından danışıb. Bildirilib ki, 2015-ci ildə istifadəyə verilən “Qalaaltı” kurortunun iqlim şəraiti və təkrarsız təbiəti buradakı meniral suyun faydalılığını daha da artırır. Burada dağ və dəniz havası bir-birinə qarışır, rütubət yoxdur. Hər tərəfdən meşə ilə əhatə olunub. Müalicəvi xüsusiyyətlərinə görə dünyada tanınan Qalaaltı suyundan qaraciyər, öd yolları iltihabı, böyrək daşı, böyrəyin xroniki iltihabı və digər uroloji xəstəliklərin müalicəsində istifadə olunur.

Konfransda Dövlət Turizm Agentliyinin nümayəndəsi Kənan Qasımov “Sağlamlıq turizminin imkanları”, Qlobal Sağlamlıq Turizmi Şurasının baş katibi Konstantin Konstantinides “Beynəlxalq sağlamlıq turizminin inkişaf etdirilməsi”, Sağlamlıq və Termal Turizmə Dəstək Assosiasiyasının başçısı Ruslan Quliyev isə “Azərbaycan kurortlarının beynəlxalq təşkilatlara üzvlüyü” mövzularında məruzə ilə çıxış ediblər.

Günün ikinci yarısında konfrans Avropanın termal xəritəsi üzrə təqdimat və müzakirələrlə davam etdiriləcək. Bununla yanaşı, beynəlxalq tədbir iştirakçıları “Qalaaltı Hotel &SPA” müasir müalicə-istirahət kompleksi ilə də yaxından tanış olacaqlar.

**AZƏRTAC**

*Pərviz Şahbazov:*

# Yaponiyanın Azərbaycanın enerji sektorunda uzunmüddətli fəaliyyəti üçün geniş imkanları var



**XXV Xəzər Beynəlxalq Neft və Qaz Sərgi-Konfransı çərçivəsində energetika naziri Pərviz Şahbazov Yaponiyanın iqtisadiyyat, ticarət və sənaye üzrə parlament nazirinin müavini Daisaku Hiraki ilə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə arasında iyirmi ildən artıq bir müddəti əhatə edən enerji əməkdaşlığının Azərbaycan və Yaponiya əlaqələrinin inkişafında rolu yüksək qiymətləndirilib. Daisaku Hiraki Yaponiyanın İTOCHU və İNPEX şirkətlərinin nümunəsində Azərbaycanın neft-qaz sektorunda uğurlu əməkdaşlığın yeni layihə və imzalanmış sənədlərlə möhkəmləndiyini deyib. Onun sözlərinə görə, “Azəri-Çıraq-Günəşli” (AÇG) ilə bağlı yeni sazişin imzalanması Yaponiyanın növbəti onilliklərdə Xəzər regionunda fəaliyyətinin davamlılığını təmin edən mühüm hadisədir.

Energetika naziri Yaponiyanın ölkəmizin enerji sektorunda uzunmüddətli fəaliyyət dairəsinin genişləndirilməsi üçün geniş imkanları olduğunu qeyd edib. SOCAR ilə Yaponiyanın İqtisadiyyat, Ticarət və Sənaye Nazirliyinin Neft, Qaz və Metallurgiya Korporasiyası (JOGMEC) arasında Əməkdaşlıq Memorandumunun imzalanmasını bu istiqamətdə atılan mühüm addım kimi dəyərləndirib. Nazir, həmçinin Azərbaycanın bərpa olunan enerji mənbələri ilə bağlı hədəfləri barədə məlumat verərək, bu sahədə Yaponiya ilə təcrübə mübadiləsinin vacibliyindən danışıb. Bildirilib ki, enerji sahəsində birgə əldə edilmiş nailiyyətlərin davamlı olması hər iki ölkə iqtisadiyyatına töhfə verəcək.

**AZƏRTAC**

# Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri məcburi köçkünlərlə görüşüb

**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşlar qəbul edilir, onların müxtəlif məsələlərlə bağlı müraciət, ərizə və şikayətlərinin həlli üçün tədbirlər görülür.**

Mayın 30-da Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində Laçın rayonundan olan, eləcə də Ağcabədi, Bərdə, Tərtər və Ağdam rayonlarında məskunlaşan 200-dək məcburi köçkünü qəbul edib.



Komitədən AZƏRTAC-a bildiriblər ki, qəbulda məcburi köçkünlər tərəfindən əsasən mənzil, qeydiyyat, kommunal xidmətlər, yol təmiri, təmir-bərpa, işə düzəlmə və bu qəbildən digər məsələlərlə bağlı kollektiv və fərdi qaydada müraciətlər edilib.

Qəbulda müraciətlərin əsasən mənzillə bağlı olduğunu nəzərə alaraq, Dövlət Komitəsinin sədri qeyd edib ki, ölkədə qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli həmişə olduğu kimi, hazırda da Azərbaycan Prezidenti İlham Əliyevin diqqət mərkəzindədir. Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərliyi və təşəbbüsü ilə qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində iri miqyaslı işlər, sosial yönümlü layihələr həyata keçirilir. Buna baxmayaraq, hələ də ağır şəraitdə yaşayan məcburi köçkünlərin olduğunu vurğulayan Rövşən Rzayev həmin soydaşlarımızın mənzil-məişət şəraitinin mərhələli və sistemli şəkildə yaxşılaşdırılması üçün addımlar atılacağı ilə bağlı məlumat verib.

Dövlət Komitəsinin sədri məcburi köçkünlərin müraciətlərini, şikayət və təkliflərini dinləyib, onların problemlərinin qanunvericiliyə uyğun şəkildə araşdırılması və həlli üçün konkret tapşırıqlar verib.

Qəbula gələn məcburi köçkünlər göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Rövşən Rzayev respublikanın digər rayonlarında məskunlaşan məcburi köçkünlərlə də görüşlərin keçiriləcəyini diqqətə çatdırıb.

**AZƏRTAC**

# Azərbaycan qadınına seçki hüququnun verilməsinin 100 illiyinə həsr edilmiş Qadınların V Forumu keçirilib






**Mayın 30-da Bakı Konqres Mərkəzində Azərbaycan qadınına seçki hüququnun verilməsinin 100 illiyinə həsr edilmiş Qadınların V Forumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, forumda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, QHT təmsilçiləri, ictimai-siyasi xadimlər, respublikanın bütün regionlarından nümayəndələr iştirak ediblər.

Forumun keçirilməsində məqsəd 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti dövründə bütün vətəndaşların bərabər hüquqlarının tanınmasının, xüsusilə qadınlara seçki hüququnun verilməsinin 100 illiyinin qeyd olunması, son 100 ildə qadın hüquqlarının müdafiəsi sahəsində qazanılmış nailiyyətlərin müzakirəsi, qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi olub.

Əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin Forum iştirakçılarına təbrik məktubunu oxuyub (məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunub).

Sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Forum iştirakçılarına təbrik məktubunu oxuyub (məktubun mətni qəzetin bugünkü nömrəsində dərc olunub).

Forumda Azərbaycanda qadın hərəkatına dair film nümayiş etdirilib.

Tədbirin açılış mərasimində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxış edərək bildirib ki, Azərbaycanda gender bərbərliyinin təmin edilməsi üçün önəmli addımlar atılır, qadın hüquqlarının qorunmasına hər zaman diqqət yetirilir.

Hicran Hüseynova Azərbaycan Xalq Cümhuriyyətinin qadınlara verdiyi hüquqlardan danışıb. O vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində bu gün Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisi kimi müasir müstəqil Azərbaycanda demokratik dövlət quruculuğu daha da inkişaf etdirilir. Bütün bunların fonunda qadın hüquqlarının qorunması məsələsi də öz aktuallığını qoruyub saxlayıb. Bu gün müstəqil Azərbaycanın qadınları parlamentdə, icra hakimiyyəti orqanlarında, bələdiyyələrdə, təhsil, səhiyyə sahələrində, biznes strukturlarında, kənd təsərrüfatında, orduda, idmanda, hüquq mühafizə orqanlarında, İKT sahəsində kişilərlə bərabər vəzifələrdə təmsil olunurlar. Birinci vitse-prezident Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti nəticəsində Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında fəal iştirakına maraq artıb.

Qadınlarımız müxtəlif beynəlxalq təşkilatlarda təmsil olunur, ölkəmizin maraqlarını müdafiə edirlər. Alim qadınlarımız dünya elminə töhfələr verirlər. Beynəlxalq təşkilatlar Azərbaycanda gender bərabərliyini xüsusi qeyd edirlər.

Komitə sədri diqqətə çatdırıb ki, əvvəllər qızların peşə seçimi ilə bağlı müəyyən stereotiplər olsa da, hazırda iqtisadiyyat, idarəetmə, texniki ixtisas qrupları üzrə təhsil alan qızlarımızın və bu sahədə elmlə məşğul olan qadınlarımızın sayı artır.

Münaqişələr zamanı qadınların daha çox əziyyət çəkdiyini qeyd edən Hicran Hüseynova Ermənistanın təcavüzkar siyasəti nəticəsində bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün həyatı yaşadığını diqqətə çatdırıb.

Baş nazirin müavini Əli Əhmədov 2018-ci ilin ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edilməsinin təsadüfi olmadığını deyərək, bunun Azərbaycan dövlətinin, xüsusilə Prezident İlham Əliyevin dövlətçilik tariximizə dərin hörmət və ehtiramının təzahürü olduğunu vurğulayıb. Diqqətə çatdırıb ki, Cümhuriyyətin qadınlara seçmək və seçilmək hüququnu verməsi təkcə müsəlman və Şərq cəmiyyətləri üçün əhəmiyyətli olmayıb. Çünki o zaman hətta özünü demokratiyanın beşiyi elan edən və sözün həqiqi mənasında, müasir demokratiyanın əsaslarını yaradan cəmiyyətlər qadınların seçmək və seçilmək hüququnu tanımaq istiqamətində addım atmamışdılar.

Müasir müstəqil Azərbaycan Respublikasının Cümhuriyyətin varisi kimi onun ənənələrini davam etdirdiyini deyən Baş nazirin müavini qadınların cəmiyyət həyatında fəallığını genişləndirmək məqsədilə qarşıya qoyulan vəzifələrdən də danışıb. Qeyd edib ki, Azərbaycan cəmiyyətinin inkişafına qadınlar xüsusi töhfələrini verirlər. Bir çox sahələr, məsələn səhiyyə, təhsil sahələrində qadınların iştirak payı kişilərdən çoxdur. Eləcə də bir sıra ixtisaslar üzrə təhsil alan qızların sayı oğlanlardan çoxdur. Bu da Azərbaycanda qadın hərəkatının nə qədər geniş inkişaf etdiyini bir daha təsdiqləyir. Əli Əhmədov qeyd edib ki, bütövlükdə idarəçilik sahəsində çalışan qadınlarımızın fəaliyyətinin genişləndirilməsi qarşıda duran vəzifələrdəndir.

Milli Məclisin sədr müavini Bahar Muradova tariximizə nəzər salaraq müsəlman Şərqində qadınlara ilk dəfə seçib-seçilmək hüququnun məhz Azərbaycanda verilməsinin qürur hissi doğurduğunu vurğulayıb. Qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti qısa müddətdə mövcud olsa da, bütün vətəndaşlara azadlığın nə demək olduğunu anladıb, qadınların ictimai-siyasi həyatda fəal iştirakı üçün onları hüquqlarla təmin edib. Bahar Muradova Cümhuriyyətin varisi olan müasir Azərbaycan dövlətinin qadınların ictimai-siyasi həyatda təmsilçiliyinin artması istiqamətində lazımi tədbirlər gördüyünü bildirib. “Biz Cümhuriyyət qurucularının məğrur davamçılarıyıq. Bizim məğrurluğumuz Cümhuriyyət qurucularının fədakarlığından, müsəlman Şərqində ilk demokratik Cümhuriyyət qurmaq bacarığımızdan qaynaqlanır”, - deyən Bahar Muradova Azərbaycan qadınının 100 il ərzində qazandığı uğurlardan danışıb, eyni zamanda, yeganə problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin əldə etdiyimiz nailiyyətlərimizi qorumağa imkan vermədiyini diqqətə çatdırıb: “Azərbaycan qadınları ölkəmizin ərazi bütövlüyünün qorunması işinə də öz töhfələrini verirlər. Milli Qəhrəman adını almış Azərbaycan qadınları bu məsələdə də kişilərdən geri qalmadıqlarını sübut ediblər. Azərbaycan qadınları ölkəmizin ərazi bütövlüyünü qorumaqda canlarını qurban verməkdən belə çəkinmirlər. Qadın-kişi bərabərliyi budur”.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi, BMT İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İshaqzai Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə təbriklərini çatdıraraq, Cümhuriyyətin fəaliyyətinin ölkə tarixində dönüş nöqtəsi olduğunu vurğulayıb. Gender bərabərliyinin BMT-nin hədəflərindən biri olduğunu qeyd edən Qulam İshaqzai Azərbaycanda bu sahədə nailiyyətlərdən danışıb.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson qadınlara seçki hüququnun verilməsinin cəmiyyətin dəyişməsinə səbəb olduğunu söyləyib. O, Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyətini təqdir etdiyini söyləyib.

BMT baş katibinin münaqişələr zamanı cinsi zorakılıq məsələləri üzrə xüsusi nümayəndəsi Pramila Patten bildirib ki, Azərbaycan öz tarixi ilə fəxr edə bilər. O, qadınlara seçib-seçilmək hüququnun verilməsinin əhəmiyyətindən danışıb. Bildirib ki, qadınların ölkənin həyatında iştirakı demokratiyanın təmin edilməsində əsas şərtlərdən biridir.

Konstitusiya Məhkəməsinin sədr müavini Sona Salmanova Azərbaycan qadınının milli dəyərlərimizin formalaşmasındakı rolundan danışıb. Diqqətə çatdırıb ki, Azərbaycan qadını öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətimizdə, xalqımızın milli dəyərlər sisteminin formalaşmasında müstəsna rol oynayıb. Bu Forumun Azərbaycan qadınına seçki hüququnun verilməsinin 100 illiyinə həsr edilməsi təsadüfi deyil. Tarixə nəzər salsaq görərik ki, məhz Azərbaycanda qadınlar ölkənin ictimai-siyasi həyatında iştirak etməyə imkan verən hüquqlarla təmin edilib, bütün ölkə vətəndaşlarına eyni hüquqlar verilərək irqi, milli, dini, sinfi bərabərsizlik aradan qaldırılıb.

Sona Salmanova qeyd edib ki, zaman keçdikcə həyatımızın başqa sahələrində olduğu kimi, məhkəmə hakimiyyəti orqanlarında, vəkillik fəaliyyətinin həyata keçirilməsində, prokurorluq orqanlarında qadınların təmsil olunması və bu tendensiyanın yüksələn xətt üzrə inkişafı dövlətin qadınlara göstərdiyi yüksək etimadın nəticəsidir.

Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova ulu öndər Heydər Əliyevin Azərbaycan qadınlarının ictimai-siyasi fəaliyyətini hər zaman yüksək qiymətləndirdiyini bildirib, muxtar respublikada qadınların dövlət qurumlarında təmsilçiliyindən bəhs edib.

Forum işini panel iclaslarla davam etdirib.

“Ekologiyada qadınlar və qida təhlükəsizliyi” mövzusunda panel iclasa BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Mələk Çakmak moderatorluq edib.

Bu paneldə Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Firdovsi Fikrətzadənin “Davamlı ərzaq təhlükəsizliyinin təmin olunmasında qadınların rolu”, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sektor müdiri Umayra Tağıyevanın “Ekologiya və qadınlar”, “Coca-Cola” şirkətinin nümayəndəsi Rəna Məmmədovanın “Azərbaycanda “Coca-Cola” və ekologiya” mövzularında məruzələri dinlənilib.

Forumun “Bərabərliyin 100 illiyi: tarixin nailiyyətləri və müasirlik” mövzusunda panel iclasına BMT baş katibinin münaqişələr zamanı cinsi zorakılıq məsələləri üzrə xüsusi nümayəndəsi Pramila Patten moderatorluq edib.

İclasda çıxış edən Ombudsman Elmira Süleymanova diqqətə çatdırıb ki, Azərbaycan Xalq Cümhuriyyəti qadınlara seçki hüququ ilə yanaşı, çoxlarına bəlli olmayan, bilavasitə qadın taleyi ilə bağlı olan qərarlar da verib. O, müasir müstəqil Azərbaycanda insan hüquqlarının təminindən, Ombudsman təsisatının fəaliyyətindən danışıb, gördüyü işləri diqqətə çatdırıb.

Milli Məclisin ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı bildirib ki, Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik respublika olmaqla yanaşı, qadınların seçib-seçilmək hüququnu tanıyan, qadın-kişi bərabərliyini təmin edən ilk müsəlman ölkəsi olub. Məhz bu dövrdə milli qadın siyasəti dövlət statusu alıb. Bununla da nəinki Şərqdə, hətta demokratiyanın beşiyi sayılan bir sıra Avropa ölkələrindən və ABŞ-dan əvvəl məhz Azərbaycanda qadına cəmiyyətin həyatında siyasi proseslərə qoşulmaq hüququ verilib.

Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının sədr müavini Sona Vəliyeva milli mətbuatımızın hər zaman - Cümhuriyyət dövründə və ondan əvvəl də xalqa xidmət etdiyini bildirib. Vurğulayıb ki, dünyada ikili standartlara əsaslanan yanaşmanın olduğu müasir dövrdə Azərbaycan bir sıra çətinliklərlə, o cümlədən əhalisinin bir milyondan çoxunun qaçqın və məcburi köçkün düşməsi, torpaqlarının 20 faizinin işğal edilməsi ilə qarşılaşıb. Bu məsələ təkcə Azərbaycanın deyil, dünya mediasının işıqlandırmalı olduğu məsələdir. Dünya mətbuatı bizim problemimizi tam işıqlandıra bilmir. Bu, xoşagəlməz haldır. Biz beynəlxalq insan haqlarını yaxşı mənimsəmiş jurnalistlər də yetişdirməliyik.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva tarixən türk qadınının mənəvi, əxlaqi keyfiyyətləri ilə seçildiyini, milli mənəvi dəyərlərin yetişməsində fəal rol oynadığını deyib, təmsil etdiyi qurumun fəaliyyətindən söhbət açıb.

Panel iclasda, həmçinin Rusiya Federasiyası Dağıstan Respublikasının ailə, analıq və uşaq hüquqlarının müdafiəsi üzrə səlahiyyətli nümayəndəsi Marina Yezhova, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Həmkarlar İttifaqının sədri Larisa Jiqaltsova, Küveyt parlamentinin ilk qadın deputatı, Küveyt Universitetinin professoru Salva Al-Jassar təmsil etdikləri ölkələrin təcrübələrindən danışıblar.

Forumun “İqtisadiyyatda qadınlar: yeni imkanlar və çağırışlar” mövzusunda panel iclasında əvvəlcə Azərbaycanda qadın sahibkarların fəaliyyəti barədə videoçarx nümayiş etdirilib.

İqtisadiyyat nazirinin müavini Sevinc Həsənova bildirib ki, Azərbaycanın bu gün mövcud iqtisadi inkişafında qadınlarımızın önəmli rolu var. Azərbaycan qadınlarına potensiallarını reallaşdırmaq üçün hər cür şərait yaradılıb. Növbəti illərdə Azərbaycan iqtisadiyyatı daha sürətlə şaxələndiriləcək və bu işdə qadınların fəaliyyəti şübhəsizdir.

Panel iclasda BMT-nin İnkişaf Proqramının Avropa və MDB ölkələri üzrə bürosunun gender məsələləri üzrə qrup rəhbəri Bharati Sadasivam “Kənd və rayon ərazilərində qadınların qərar qəbul etməkdə səlahiyyətlərinin artırılması və qadınların iqtisadi hüquqlarının təmin edilməsi”, Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun şöbə müdiri Rəna Mirzəzadə “Dayanıqlı inkişaf və biliklər iqtisadiyyatı gender nəzəri-hüquqi paradiqmalarda”, Azərbaycan Sahibkar Qadınlar Assosiasiyasının idarə heyətinin sədri Səkinə Babayeva “Qadınların iqtisadi imkan və bacarıqlarının artırılmasının sahibkarlığın inkişafına təsiri”, Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) icraçı direktoru Natəvan Məmmədova “Azərbaycan qadınlarının aparıcı şirkətlərdə rolu və onların innovativ inkişafda perspektivləri”, “ABAD” (Ailə Biznesinə Asan Dəstək) publik hüquqi şəxsin nümayəndəsi Turanə Qasımova “Qadın sahibkarlığının inkişafında son dövrlər mövcud olan problemlər və perspektivlər, yeni tendensiyalar” mövzularında çıxış ediblər.

“Qadınlar və İKT: reallıq və perspektivlər” mövzusunda panel iclas Prezident yanında Strateji Araşdırmalar Mərkəzinin direktor müavini Gülşən Paşayevanın moderatorluğu ilə keçib. O, əvvəlcə plenar iclas barədə məlumat verib. Bildirib ki, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi qadınların İKT sahəsində rolunun artırılmasına dəstək vermək məqsədilə bir sıra tədbirlər həyata keçirir. Rəqəmsal fərqliliyin aradan qaldırılması üçün ölkəmizdə müxtəlif tədbirlər təşkil olunur.

Panel iclasda Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə “Rəqəmsal bərabərsizliyin gender aspektləri”, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının strateji araşdırma və planlaşdırma şöbəsinin müdiri Səadət Yusifova “Qadınlar və sosial media: Çağırışlar və imkanlar” mövzularında məruzələrlə çıxış ediblər.

Fransız yazıçı və jurnalist Jan-Lui Quro İKT-də qadınların rolundan danışıb.

“Azərbaycanın 100 işgüzar xanımı” klubunun sədri Tatyana Mikayılova “İKT sahəsində qadınların irəli çəkilməsi və o cümlədən qadın və qızların müəllif kimi müvafiq təşəbbüslərin həyata keçirilməsinə stimullaşdırılması”, “Femmes Digitales” İKT Qadınlar Klubunun təsisçisi Səbinə Məmmədli “İKT-nin qadın sahibkarlığının inkişaf etdirilməsinə töhfəsi”, Azərbaycan Futuroloqlar Cəmiyyətinin sədri Reyhan Hüseynova “İKT sahəsində qadın və qızların hüquq və imkanlarının genişləndirilməsi-Gələcəyin Təminatı” mövzularında çıxış ediblər.

Qeyd olunub ki, İKT gender bərabərliyi, qadınların hüquq və imkanlarının genişləndirilməsinin təmin edilməsində əsas amillərdən biridir. Bu texnologiyalardan istifadə imkanına malik olan qadınlar və qızlar yeni iş yerlərinin yaradılması və sahibkarlıq fəaliyyətinin inkişafı kimi imkanlardan asanlıqla istifadə edə bilərlər.

Daha sonra panellərin moderatorları - BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Mələk Çakmakın, BMT baş katibinin münaqişələr zamanı cinsi zorakılıq məsələləri üzrə xüsusi nümayəndəsi Pramila Pattenin, iqtisadiyyat nazirinin müavini Sevinc Həsənovanın və Prezident yanında Strateji Araşdırmalar Mərkəzinin direktor müavini Gülşən Paşayevanın hesabatları dinlənilib.

Forumun yekununda qətnamə qəbul edilib. Qətnaməni Milli Məclisin elm və təhsil komitəsinin üzvü, Gəncə Dövlət Universitetinin prorektoru Pərvin Kərimzadə səsləndirib.

Forum iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciəti qəbul edilib. Müraciəti Bakı Slavyan Universitetinin rektoru, Yeni Azərbaycan Partiyası Qadınlar Şurasının sədri Nurlana Əliyeva oxuyub.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova tədbirə yekun vurub. O, Forumun təşkilində göstərilən dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlığını bildirib. Qadınların bilik və bacarıqlarını, potensiallarını reallaşdırmaları üçün Azərbaycan hökuməti tərəfindən hər cür şərait yaradıldığını diqqətə çatdıran Hicran Hüseynova qadınların özlərinin təşəbbüslə çıxış etmələrinin, hüquqlarının müdafiəsi ilə bağlı fəallıq göstərmələrinin vacibliyini vurğulayıb. Komitə sədri Forumda səsləndirilən ideyaların, irəli sürülən təkliflərin önəmini qeyd edib.

Forum bədii proqramla başa çatıb.

**AZƏRTAC**

# Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2018-ci ilin iyun ayında şəhər və rayonlarda vətəndaşların qəbulu

## CƏDVƏLİ

| Mərkəzi icra hakimiyyəti orqanı | Qəbul Günü | Qəbulun keçirildiyi şəhər | Əhatə olunan şəhər və rayonlar |
|---|---|---|---|
| **Fikrət Məmmədov** **Ədliyyə naziri** | 06 | Siyəzən | Siyəzən, Şabran, Xızı |
| **Azad Rəhimov** **Gənclər və idman naziri** | 08 | Quba | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən |
| **Kərəm Həsənov** **Əmlak Məsələləri Dövlət Komitəsinin sədri** | 08 | İsmayıllı | İsmayıllı, Qəbələ, Oğuz |
| **Məleykə Abbaszadə** **Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Direktorlar Şurasının sədri** | 08 | Şəki | Şəki, Qax, Zaqatala, Balakən, Oğuz |
| **Ceyhun Bayramov** **Təhsil naziri** | 11 | Mingəçevir | Mingəçevir, Yevlax, Bərdə, Ağdaş |
| **Mübariz Qurbanlı** **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** | 21 | Gədəbəy | Gədəbəy, Şəmkir, Tovuz, Ağstafa, Qazax |
| **Arzu Rəhimov** **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** | 21 | Lənkəran | Lənkəran, Astara, Lerik, Yardımlı |
| **Zakir Qaralov** **Baş prokuror** | 22 | Ağstafa | Ağstafa, Qazax, Tovuz, Şəmkir, Gədəbəy |
| **Sahil Babayev** **Əmək və əhalinin sosial müdafiəsi naziri** | 22 | Şirvan | Şirvan, Sabirabad, Saatlı, Hacıqabul |
| **Kəmaləddin Heydərov** **Fövqəladə hallar naziri** | 22 | Siyəzən | Siyəzən, Xaçmaz, Şabran, Quba, Qusar |
| **Şahin Mustafayev** **İqtisadiyyat naziri** | 22 | Yardımlı | Yardımlı, Masallı, Cəlilabad |
| **İnam Kərimov** **Kənd təsərrüfatı naziri** | 22 | Şəki | Şəki, Qax, Zaqatala, Balakən, Oğuz |
| **Əbülfəs Qarayev** **Mədəniyyət naziri** | 22 | Qəbələ | Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Qobustan |
| **Oqtay Şirəliyev** **Səhiyyə naziri** | 22 | Qusar | Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən, Xızı |
| **Hicran Hüseynova** **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** | 22 | Balakən | Balakən, Şəki, Zaqatala, Qax, Oğuz |
| **Rövşən Rzayev** **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** | 22 | Gəncə | Gəncə, Samux, Göygöl, Kəlbəcər |
| **Muxtar Babayev** **Ekologiya və təbii sərvətlər naziri** | 29 | Şəki | Şəki, Qəbələ, Oğuz, İsmayıllı |
| **Ramin Quluzadə** **Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri** | 29 | Qusar | Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən, Xızı |
| **Mikayıl Cabbarov** **Vergilər naziri** | 29 | Qəbələ | Qəbələ, İsmayıllı, Oğuz |
| **Səfər Mehdiyev** **Dövlət Gömrük Komitəsinin sədri** | 29 | Qax | Qax, Zaqatala, Balakən |
| **Ramil Usubov** **Daxili işlər naziri** | 30 | Quba | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən, Xızı |

**Qeyd:** *Vətəndaşların qaldırdıqları məsələlər qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanının səlahiyyətlərinə aid olmalıdır.*

# İlkin start qiymətindən 2 dəfə çox məbləğ

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən özəlləşməyə çıxarılan əmlakların biznes yatırımları üçün əlverişli, cəlbedici olması investorların marağını artırır. İştirak proseduru sadə olan hərraclara həm iri, həm də kiçikhəcmli sərmayə tələb edən müxtəlif çeşidli obyektlər çıxarılır. Sadalanan müsbət cəhətlər mayın 29-da keçirilən hərracı da rəqabətli edib. Əmlaklardan birinin qiyməti 2 dəfə çox artıb. Belə ki, 60 saylı mağaza investorları özünə cəlb edə bilib. Paytaxtın Qaradağ rayonun Qobustan qəsəbəsində yerləşən adıçəkilən obyektin ilkin start qiyməti 23 min 500 manat olsa da, ən son təklif 48 min 750 manata qədər yüksəlib.



Daha aşağı investisiya ilə qeyri-yaşayış sahələri də özəlləşdirilib. Sumqayıt şəhərində yerləşən ümumi faydalı sahəsi 20 kvadratmetrə yaxın olan qeyri-yaşayış sahəsi belə əmlaklardandır. Adıçəkilən obyekt 6 min manata sahibini tapıb.

Qeyd edilməlidir ki, cəlbedici əmlaklara iyunun 5-də keçiriləcək növbəti hərracda da sahib ola bilərsiniz. Sumqayıt şəhərinin Bağlar massivində yerləşən "Laçın restoranı" kifayət qədər gəlirli obyektlərdəndir. Həmin əmlakın ümumi faydalı sahəsi 500 kv.m-ə yaxın, torpaq sahəsi isə 2 min kv.m-dən çoxdur.

Tikinti sahəsində də investorlar üçün maraqlı əmlaklar var. Gəncə şəhərində yerləşən "Beton və məhlul istehsal edən sahə" sahibinə yaxşı qazanc gətirə bilər.

**Nəriman CAVADOV,**
**"Respublika".**

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
RESPUBLİKA
REKLAM VƏ ELAN XİDMƏTİ
441-20-23




### KİYEVDƏ ÖLDÜRÜLDÜYÜ BİLDİRİLƏN RUSİYALI JURNALİST SAĞDIR




Mayın 29-da Kiyevdə öldürüldüyü açıqlanan rusiyalı jurnalist Arkadi Babçenko sağdır. "APA"nın Ukrayna mətbuatına istinadən verdiyi xəbərə görə, bunu Ukrayna Təhlükəsizlik Xidmətinin (SBU) rəhbəri Vasili Qritsak açıqlayıb.

Məlumata görə, Vasili Qritsak qeyd edib ki, Arkadi Babçenkonun öldürülməsi ilə bağlı tarixçə jurnalistə qarşı hazırlanan sui-qəsdi üzə çıxarmağa yönəlmiş tamaşa idi. Daha sonra o deyib: "Mən Arkadi Babçenkonu üçüncü doğum günü münasibətilə təbrik edirəm".

Kəşfiyyat rəhbərinin bu sözlərindən sonra Arkadi Babçenko zala daxil olub. Vasili Qritsak sui-qəsdi Rusiya xüsusi xidmət orqanlarının sifariş etdiyini bildirib.

Vasili Qritsak deyib: "İstintaq prosesində müəyyən edilib ki, A.Babçenkoya qarşı hazırlanan terror aktı Rusiya kəşfiyyatının öz siyasi baxışlarına görə ölkədən qaçaraq Ukraynaya, eləcə də Avropa ölkələrinə sığınan Rusiya vətəndaşlarının fiziki məhvinə yönəlmiş əməliyyatının yalnız bir elementidir".

Eyni zamanda, Vasili Qritsak sui-qəsdin təşkilatçısının bu gün Kiyevdə yaxalandığını açıqlayıb. "Üç saat əvvəl bu cinayətin təşkilatçısı Kiyev şəhərində bizim tərəfimizdən saxlanılıb. Hazırda bu vətəndaşla bağlı istintaq tədbirləri həyata keçirilir. Onun yaşadığı və müvəqqəti qaldığı yerlərdə axtarış təbirləri aparılır", - deyə Ukrayna Təhlükəsizlik Xidmətinin rəhbəri bəyan edib.

Bununla yanaşı, xəbər verilir ki, Arkadi Babçenko da mətbuat konfransında çıxış edib. Məlumata görə, onun öldürülməsi sifarişi barədə şübhələr iki ay əvvəl məlum olub. Belə ki, o bir ay əvvəl "sifarişlə qətlə yetiriləcəyi ilə bağlı" məlumatlandırılıb.

Babçenkonun sözlərinə görə, ona göstərilmiş sənədlərdən sonra o, bu fikrə gəlib ki, bu məsələdə Rusiya xüsusi xidmət orqanlarının əli var. Babçenko onun ölüm xəbərinin elan edilməsini nəzərdə tutan Ukrayna xüsusi xidmət orqanlarının əməliyyatında iştirak etməyə razılıq verib.

Qeyd edək ki, 41 yaşlı Arkadi Babçenko "Moskovskiy komsomolets" və "Novaya qazeta" qəzetlərinin hərbi müxbiri olub, Rusiyanın "Birinci kanalı" və "TV Sentr" ilə əməkdaşlıq edib. Jurnalist Cənubi Osetiya münaqişəsini işıqlandırıb. O, Rusiyada özünü təhlükəsiz hiss etmədiyinə görə bu ölkəni tərk edib.

Xatırladaq ki, Arkadi Babçenko reportajlarında Rusiyanın yürütdüyü daxili və xarici siyasətin kəskin tənqidçisi kimi çıxış edib.

### ÇİNDƏN ABŞ-a TİCARƏT RAZILAŞMALARINI POZMAQ İTTİHAMI



Ağ Evin ticarət tədbirləri Pekin və Vaşinqton arasında bir müddət əvvəl əldə olunmuş razılaşmalara ziddir. "APA"nın Rusiya mətbuatına istinadən verdiyi xəbərə görə, bu barədə Çinin Kommersiya Nazirliyinin bəyanatında bildirilir.

Qurumun qeyd etdiyinə görə, rəsmi Çin ABŞ hökumətinin bu cür qərar verəcəyini gözləyirdi və Pekin bu məsələdə dövlətin, eləcə də öz xalqının maraqlarını qorumağa hazırdır.

"Biz ABŞ-ı qəbul olunmuş birgə bəyanata uyğun şəkildə addım atmağa çağırırıq", - deyə qurumdan bildirilib.

Qeyd edək ki, ABŞ iyun ayının ortalarında Çin istehsalı olan mallara 25 faizlik rüsum tətbiq edəcəyini bəyan edib.

Ötən həftə ABŞ nümayəndə heyəti ilə görüşən Çinin baş nazirinin müavini Lyu Xe tərəflərin "ticarət müahirəbəsi"nə başlamayacağına, xidmət və malların ABŞ-dan Çinə tədarükünün genişləndirilməsinə dair razılığa gəliblər.

### RUSİYA UKRAYNA ƏRAZİSİNDƏN ÇIXMAYANA QƏDƏR SANKSİYALAR DAVAM EDƏCƏK



Amerika Birləşmiş Ştatlarının BMT-dəki daimi nümayəndəsi Nikki Heyli bu qurumun Təhlükəsizlik Şurasının Ukraynadakı proseslərlə bağlı keçirdiyi toplantısında çıxış edərək, Rusyanın Ukraynanın şərqindəki fəaliyyətlərini və Krımın ilhaqını şiddətlə qınadıqlarını bildirib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Nikki Heyli çıxışı zamanı deyib: "Rusiya Ukraynadakı çirkin fəaliyyətlərinə son verməyənə qədər ABŞ-ın mövqeyi dəyişməyəcək. Rusiya Krımdan və Ukraynanın şərqindən çəkilib, Minsk müqaviləsinə riayət etməyə qədər sanksiyalarımız davam edəcək" .

Eyni zamanda, Nikki Heyli Rusiyanı Malayziya Hava Yollarına aid "MH17" reysli sərnişin təyyarəsinin vurulmasına görə məsuliyyəti qəbul etməyə və bununla bağlı aparılan istintaqla əməkdaşlığa çağırıb.

Rusiyanın BMT-dəki daimi nümayəndəsi Vasili Nebenzya isə ABŞ-ın Rusiya əleyhinə təbliğat apardığını qeyd edib.

Bununla yanaşı, heç kimlə müharibə etmədiklərini qeyd edən Vasili Nebenzya Ukraynanı da atəşkəsi pozmaqda və münaqişələri qızışdırmaqda günahlandırıb.

Malayziya Hava Yollarına aid "MH17" reysli sərnişin təyyarəsininnin vurulması məsələsi ilə bağlı məsuliyyət iddialarını da rədd edən V.Nebenzya etibarlı və şəffaf istintaqın vacibliyini vurğulayıb.

### TRAMP: MEKSİKA DİVARIN PULUNU GEC DƏ OLSA ÖDƏYƏCƏK



ABŞ prezidenti Donald Tramp Meksika ilə sərhəddə inşa ediləcək divar ilə bağlı bəyanat verməkdə davam edir. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Qeyri-leqal miqrasiyanın qarşısını almaq məsələsində Meksikanın öz öhdəliklərini yerinə yetirmədiyini qeyd edən Donald Tramp inşa ediləcək divarın pulunu Meksikanın ödəyəcəyini bir daha təkrarlayıb.

"Meksika çəkiləcək divarın pulunu gec də olsa ödəyəcək", - deyə ABŞ prezidenti Donald Tramp vurğulayıb.

Qeyd edək ki, Meksika prezidenti Enrike Penya Nyeto şəxsi internet səhifəsində mövzu ilə bağlı açıqlama verib.

"Prezident Tramp! Xeyr. Meksika inşa ediləcək divarın pulunu ödəməyəcək", - deyə Meksika prezidenti Enrike Penya Nyeto qeyd edib.

### NEFT QİYMƏTLƏRİNİN TALEYİ QEYRİ-MÜƏYYƏN OLARAQ QALIR



Dünya birjalarında neftin qiymətlərində cüzi bahalaşma müşahidə olunub. "APA"nın məlumatına görə, "Brent" neftinin bir barrelinin qiyməti artaraq 77,36 dollar təşkil edib. Qərbi Texas markalı neftin qiymətində də artım olub - 68 dollar 25 sent.

Eyni zamanda, xəbər verilir ki, mütəxəssislər neftin yenidən ucuzlaşacağı - məsələn, Qərbi Texas neftinin 66 dollar 40 sent səviyyəsində sabitləşəcəyi qənaətindədir.

Bu ehtimal OPEK-in hasilatın məhdudlaşdırılması sazişinə düzəliş edəcəyi ilə bağlıdır. Belə ki, hazırda qurum İran və Venesuelanın idxalın azalmasından üzləşdikləri zərəri kompensasiya etmək üçün hasilat səviyyəsini yenidən artırmağı nəzərdən keçirir.

Hazırda isə iri hasilatçıların diqqəti iyunun 22-də keçiriləcək Vyana sammitinə köklənib. Hasilat həcmi ilə bağlı yekun qərar həmin görüşdə veriləcək və "qara qızıl"ın sonrakı taleyinə də məhz burada aydınlıq gətiriləcək.

Məlumata görə, əgər bu görüşdə ölkələr razılığa gələ bilməsələr qiymətlərin qeyri-müəyyənlik dinamikası davam edəcək.

### İNGİLİS DİLİ MÜƏLLİMİNDƏN AĞ EVƏ QRAMMATİKA DƏRSİ



ABŞ-da təqaüdə çıxan ingilis dili müəllimi Ağ Evdən ona göndərilən məktublardakı səhvləri işarələyərək geri göndərib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Verilən xəbərə görə, Atlanta şəhərində yaşayan 61 yaşlı İvonn Meyson "CNN" kanalına açıqlamasında Floridada 17 şagirdinin silahlı hücum zamanı öldürülməsilə əlaqədar prezident Donald Trampla görüşmək üçün Ağ Evə məktubla müraciət etdiyini bildirib.

Bir müddət sonra İvonn Meysona rədd məktubu gəlib. O, isə cavab məktublarındakı səhvləri işarələyərək yenidən Ağ Evə göndərib.

Məktubun sol küncündə "Bunu heç redaktə etdinizmi?" qeydini yazan İvonn Meyson qrammatikaya, xüsusilə də, Ağ Evdə riayət edilməsinin vacib olduğunu bildirib.

İvonn Meyson deyib: "Əgər bu məktub orta məktəbdə yazılsaydı "C", liseydə yazılsaydı "D" qiyməti ilə dəyərləndirərdim".

Məlumata görə, İvonn Meysonun "Facebook" səhifəsində paylaşdığı səhv dolu məktub öncə sosial mediada, daha sonra aparıcı media qurumlarında işıqlandırılıb. ■

# Suraxanı rayonunda "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası istiqamətində növbəti tədbir

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 27 aprel tarixli 1993 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası istiqamətində rayon İcra hakimiyyətinin təşkilatçılığı ilə rayon Mənzil-Kommunal Təsərrüfatı Birliyinin, Mənzil-Kommunal İstismar Sahələrinin məsul işçilərinin iştirakı ilə dəyirmi masa təşkil olunmuşdur.



Dəyirimi masada çıxış edən **rayon icra hakimiyyəti başçısı aparatının hüquq şöbəsinin müdiri Elşən Zahirli** "Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı"na uyğun olaraq şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, korrupsiyaya şərait yaradan halların aradan qaldırılması və qabaqlayıcı tədbirlərin həyata keçirilməsinin əsas vəzifə kimi qarşıya qoyulduğunu qeyd etmişdir. Elşən Zahirli bildirmişdir ki, Açıq Hökumətin Təşviqinə dair Milli Fəaliyyət planının cari ildə icrasını təmin etmək məqsədi ilə rayon icra hakimiyyəti başçısının 01 yanvar 2018-ci il tarixli sərəncamına əsasən İş planı təsdiq edilmiş və buna uyğun olaraq rayon İcra hakimiyyətində müasir elektron xidmət növlərinin təkmilləşdirilməsi, yeniliklərə inteqrasiya edilən elektron xidmətlərin sayının artırılması, "Elektron hökumət" portalının imkanlarından istifadə edilərək vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirlərin təmin edilməsi və görülmüş işlər barədə RİH-in rəsmi internet səhifəsində məlumatların yerləşdirilməsi təmin edilmişdir.

Tədbirdə çıxış edən **Suraxanı rayon prokurorunun böyük köməkçisi Fizuli Əliyev** Açıq hökümətin təşviqi istiqamətində Suraxanı rayon prokurorluğunda da bir sıra işlərin görüldüyünü bildirərək qeyd etmişdir ki, rayon prokurorluğu Respublika Baş Prokurorluğunda yaradılmış mərkəzləşdirilmiş "Elektron Cinayət" və "Müraciətlərin elektron qeydiyyatı" portallarında istintaq edilən cinayət işlərinin və baxılan müraciətlərin yerləşdirilməsini təmin etmişdir. Nəticədə vətəndaşlar prokurorluğa gəlmədən müraciətləri üzrə qəbul edilmiş qərarlarla həmin portallara daxil olmaqla məlumat almaq, həmçinin müraciətlərini birbaşa elektron qaydada prokurorluğun saytına göndərmək imkanı əldə etmişlər. Vətəndaşların prokurorluqda qəbulu işi daha da təkmilləşdirilmiş, günündən asılı olmayaraq prokurorluğa müraciət edən vətəndaşların qəbulu, müraciətlərinin operativ həll edilməsi və nəticəsi barədə qısa müddət ərzində yazılı və elektron qaydada cavablandırılması təmin edilir. Fizuli Əliyev tədbir iştirakçılarını maraqlandıran məsələlərlə bağlı ətraflı məlumat vermiş, onların çoxsaylı suallarını cavablandırmışdır.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

## *Azərbaycan Texnologiya Universitetində*

Azərbaycan Texnologiya Universitetində (UTECA) istehsalat müəssisələri ilə əlaqələr prioritet məsələlərdəndir. Belə ki,bir çox müəssisələr ilə



artıq əməkdaşlıq yüksək səviyyədədir. Respublika Prezidentinin xeyir-duası ilə yaradılmış iri layihələrdən olan Mingəçevir Tekstil MMC ilə də əməkşdaşlığa başlanmışdır. Ötən gün Mingəçevir Tekstil MMC ilə universitet arasında əməkdaşlıq memorandumu imzalanıb.

Bununla bağlı UTECA-da iki qurumun rəhbərləri arasında keçirilən görüşdə rektor, professor Akif Süleymanov qeyd edib ki, universitet mütəxəssis hazırlığı profilinə uyğun sahələrdə fəaliyyət göstərən sənaye müəssisələri ilə əməkdaşlıqda həmişə maraqlıdır. Məqsəd müəssisələri kadr hazırlığı prosesində iştiraka cəlb etməklə onların tələblərinə uyğun məzunlar hazırlamaqdır. Azərbaycan Texnologiya Universiteti (UTECA) artıq bir neçə bu cür sənaye müəssisəsi ilə qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq edir. Yüngül sənaye mühəndisliyi universitetin baza ixtisaslarından olduğu üçün bu sahədə fəaliyyət göstərən Mingəçevir Tekstil MMC ilə əməkdaşlıq böyük perspektiv vəd edir.

Mingəçevir Tekstil MMC-nin icraçı direktoru Mehman Hüseynov da rəhbərlik etdiyi müəssisə haqqında geniş məlumat verib. O, bildirib ki, tezliklə yüngül sənaye sektorunun ən aparıcı müəssisələrindən biri olmağı qarşısına məqsəd qoyan istehsalat sahəsi də təhsil ocaqları ilə əməkdaşlığı vacib hesab edir. İxtisaslı kadrların tapılması ilə bağlı ortaya çıxan çətinlik, mövcud əməkdaşların ixtisas təlimlərinə cəlb olunması ehtiyacı universitet-sənaye əlaqələri prosesinə qoşulmağı zəruri edir. Məhz buna görə də bu gün təməli qoyulan əməkdaşlığın genişləndirilməsi hər iki tərəf üçün böyük səmərə verə bilər.

UTECA-nın rektoru, professor Akif Süleymanov və Mingəçevir Tekstil MMC-nin icraçı direktoru Mehman Hüseynov tərəfindən imzalanan memorandum iki müəssisənin təcrübə və imkanlarından ortaq istifadə etməklə elmi-praktik əlaqələrin genişləndirilməsini, birgə tədqiqat işlərinin aparılmasını, kadr hazırlığı prosesində əməkdaşlığın təmin edilməsini nəzərdə tutur.

* * *

Azərbaycan Texnologiya Universitetində (UTECA) növbəti "Məzun günü" keçirildi. Sayca 42-ci buraxılışı olan universitetin builki məzun sayı 750 nəfər olmuşdur. "Məzun günün"də universitetin rəhbərliyi, professor-müəllim heyəti və valideynlərlə yanaşı, Gəncə və ətraf bölgədə yerləşən məktəblərin 11-ci sinif şagirdləri də iştirak edirdilər. Dövlət rəsmiləri və qonaqlar öncə universitetin həyətində təşkil olunan sərgilərlə tanış oldular.

Tədbirdə UTECA-nın rektoru, professor Akif Süleymanov məzunlara gələcək həyat və karyeralarında uğurlar arzulayaraq qeyd etdi ki, universitet rəhbərliyi ötən dövr ərzində gənclərin daha yaxşı kadr kimi hazırlanması üçün bütün zəruri addımları atıb, şəffaf təhsil mühiti yaradılıb, univesitetin maddi-texniki bazası zənginləşdirilib, tədrisin keyfiyyəti yüksəldilib. Universitet-sənaye əlaqələrinin effektiv modelini yaratmaqla tələbələrin təhsil illərində praktik biliklər qazanması təmin olunub. Mübadilə proqramları isə onlara xarici universitetlərdə təhsil prosesinə qoşulmaq imkanı qazandırıb. Çıxışının sonunda rektor məzunları ölkəmizin inkişafı üçün əzmlə çalışmağa, fəal vətəndaş mövqeyi tutmağa və bitiridikləri universitetin layiqli təbliğatçısı olmağa çağırıb.

Çıxış edən prorektorlar, dekanlar, valideynlər və digər qonaqlar da məzunları təbrik edərək onlara gələcək karyeralarında uğurlar arzu etdilər. Sonra təhsil aldığı illər ərzində fərqlənən fəal tələbələrə, həmçinin UTECA




tərəfindən məktəblilər arasında keçirilmiş olimpiadalarda uğurlu nəticə göstərən şagirdlərə "Fəxri fərman" və "Təşəkkürnamə"lər təqdim edildi.

Sonda incəsənət nümayəndələrinin iştirakı ilə geniş konsert proqramı, tanınmış müğənni Şəbnəm Tovuzlunun ifaları mərasim iştirakçıları tərəfindən maraqla qarşılandı.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Respublika çempionatının qalibləri mükafatlandırıldı

**Dövlət Sərhəd Xidmətində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi münasibətilə təntənəli tədbirlər davam etdirilir. Bütün hərbi hissə və bölmələrdə keçirilən mədəni-kütləvi tədbirlərdə, elmi-praktiki seminarlarda, görüşlərdə sərhədçi veteranlar, elm və incəsənət xadimləri, yerli icra hakimiyyəti orqanlarının və ictimaiyyətin çoxsaylı nümayəndələri iştirak edirlər.**



Bayram tədbirlərində XX əsrin əvvəllərində Şərqdə ilk Azərbaycan Demokratik Respublikasının yaradılması, xalqımızın qədim dövlətçilik ənənələrinə, zəngin tarixə malik olması qeyd olunmaqla, müstəqil, müasir Azərbaycan dövlətini əbədi edən Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətləri dərin minnətdarlıq hissi ilə vurğulanmışdır.

Respublika Gününə həsr olunmuş silsilə tədbirlərin davamı olaraq 27 may 2018-ci il tarixində "Sərhədçi" İdman Olimpiya Mərkəzində Azərbaycan Kunq-fu Federasiyasının təşkilatçılığı ilə Kunq-fu idman növü üzrə 26-cı Respublika çempionatı keçirilmişdir. Tədbirin açılış mərasimində çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ali diqqəti və qayğısı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı ilə ölkəmizdə keçirilən beynəlxalq idman yarışlarının Azərbaycan dövlətinin gücünü, iqtisadi qüdrətini, möhtəşəm yarışları keçirmək bacarığını, qazanılan qələbələrin ölkəmizdə idmana və idmançılara göstərilən yüksək dövlət qayğısının bariz nümunəsi olmasını xüsusi qeyd etmişlər.

26 komandanın iştirakı ilə keçirilən Kunq-fu üzrə ölkə birinciliyində "Sərhədçi" yığma komandası 18 idmançı ilə iştirak etmiş və gərgin mübarizə şəraitində keçən yarışda 6 qızıl, 2 gümüş və 5 bürünc medal qazanaraq komandalar arasında birinci yerə yüksəlmişdir.

İdmançılarımızdan Əli Mirələkbərli (90 kq+), Əfqan Fətixanov (90 kq), Şənlik Talıbov (80 kq), Hüseyn Hüseynov (56 kq), Lida Lətifova (45 kq), Mustafa Hüseynov (35 kq) müxtəlif çəkilər üzrə yarışın ən yüksək pilləsinə layiq görülmüşlər.

Tamaşaçılar tərəfindən böyük maraqla izlənilən yarışın sonunda qaliblər təltif olunmuşlar.



**Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzi.**

# "Mastercard"ın Azərbaycan üzrə yeni meneceri



**"Mastercard" qlobal ödəmə sistemləri sahəsində çalışan texnologiya şirkətidir. Şirkət 210 ölkədə istifadəçi, maliyyə institutları, ticarət təşkilatları, dövlət və biznes strukturlarını birləşdirən dünyanın ən çevik ödəmələr emalını idarə edir. "Mastercard"ın məhsul və həlləri alış-veriş, səyahət, biznes və maliyyə idarətməsi kimi gündəlik məsələləri daha rahat, təhlükəsiz və effektiv şəkildə həll etməyə imkan yaradır.**

Şirkət Erdem Çakarı Azərbaycan üzrə menecer təyin edib. Böyük təcrübəsi sayəsində "Mastercard"ın Azərbaycanda strateji inkişafı, şirkətin biznes və əhəmiyyətinin artması istiqamətində çalışacaq.

"Azərbaycanda "Mastercard"ın biznesinə rəhbərlik etmək imkanına çox şadam. Biz Azərbaycanı nağdsız ödəniş sahəsində regionun lideri və "Mastercard"ın ən mütərəqqi texnologiyalarını tətbiq edən ilk ölkə kimi görmək istəyirik", - deyə "Mastercard"ın yerli bazarda uzunmüddətli öhdəliklərini vurğulayan Erdem Çakar bildirib.

Azərbaycan Mərkəzi Bankı ilə birgə hazırlanan "Nağdsız Azərbaycan yolunda" layihəsi, "Priceless Special" platformasının işə salınması, ASAN "İnnovasiyalar mərkəzi" ilə maliyyə savadlılığı proqramının təşəbbüsü və şirkətin Bakı ofisinin açılması kimi bir sıra uğurlu layihə həyata keçirdikdən sonra "Mastercard"ın Azərbaycan üzrə keçmiş meneceri Alper Meriç iqtisadiyyatı çox sürətlə inkişaf edən bazarlarda loyallıq və müəssisələrin strateji təhlükəsizliyi istiqamətlərinin başçısı təyin edilib. O, yeni vəzifəsində "Mastercard" üçün qiymətli olan loyallıq və təhlükəsizliyin təmin olunması üzrə məhsul və xidmətlərin hazırlanmasında fokuslaşaraq 15 ölkəyə cavabdeh olacaq.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**

## BİLDİRİŞ

**"Bakı Metropoliteni" QSC tərəfindən 24 aprel 2018-ci il tarixdə keçirilmiş Avtomobil, maşın və mexanizmlər üçün süzgəc və akkumulyatorların satınalınmasına dair açıq tender üsulu ilə keçirilən müsabiqədə LOT 1 Avtomobil, maşın və mexanizmlər üçün süzgəclərin satınalınması üzrə "LİNDPRO" MMC təqdim etdiyi ƏDV daxil 58.893,90 man (əlli səkkiz min səkkiz yüz doxsan üç manat 90 qəpik) manat məbləğində tender təklifi, LOT 2 Avtomobil, maşın və mexanizmlər üçün akkumulyatorların satınalınması üzrə GRAND MOTORS MMC-nin ƏDV daxil 68400.00 (altmış səkkiz min dörd yüz manat 00 qəpik) manat məbləğində tender təklifləri "Bakı Metropoliteni" QSC tərəfindən qəbul edilmişdir. Qalib gəlmiş təşkilatlar ilə müvafiq satınalma müqavilələri imzalanmışdır.**

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

## BİLDİRİŞ

**"Respublika" qəzetinin 30.05.2018-ci il tarixli nömrəsində "Azərbaycan Sənaye Korporasiyası" ASC balansına keçəcək əmlakların qiymətləndirilməsi xidmətlərinin təkliflər sorğusu üsulu ilə satınalınması məqsədilə dərc edilmiş təkliflər sorğusunun elanında təkliflər sorğusunda iştirak etmək üçün sənədlərin qəbulu 05.06.2018-ci il saat 11:00 tarixinədək dəyişdirilmişdir.**

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 2 lot üzrə keçirilir:**

**Lot 1. İstismar işləri üçün tələb olunan mal-materialların satınalınması**

**Lot 2. PVC boruların satınalınması**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

**Tenderdə iştirak etmək istəyənlər**

**Lot 1 üzrə 200 (iki yüz) manat (ƏDV xaric)**

**Lot 2 üzrə 300 (üç yüz) manat (ƏDV xaric)**

İştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

*VÖEN: 9900044741, hesab: AZ14AZPO91015461200420100157,*

*Bank: "Azərpoçt" MMC PF 1, kodu: 691011, bankın VÖENi: 9900037711,*

*M/h: AZ76NABZ01350100000000094944, S.W.İ.F.T: AZPOAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **13 iyul 2018-ci il saat 17:00-dək** aşağıdakı sənədləri "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 2% Bank Zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*

*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*

*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*

*4. Tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*

*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməmiş vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*

*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*

*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*

*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **23 iyul 2018-ci il saat 17:00-a** qədər "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **24 iyul 2018-ci il saat 15:00-da** "Bakı Telefon Rabitəsi" MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Qafarov Elxan Misir oğlu, tel.: (+994 12) 493-84-99**

**Tender Komissiyası.**

**BALANS HESABATI**
**31.12.2017-ci il tarixdə başa çatmış il üzrə**

*Azərbaycan Manatı ilə*

| AKTİVLƏR | Qeyd | 31.12.2017-ci il | 31.12.2016-cı il |
|---|---|---|---|
| Qeyri-maddi aktivlər | 1.1 | | |
